## PREZİDENT İLHAM ƏLİYEV ÇİNİN XARİCİ İŞLƏR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Çin Xalq Respublikasının xarici işlər naziri Van Yinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Çində keçirilən ikinci "Bir kəmər, bir yol" Beynəlxalq Forumuna dəvətə görə Çin tərəfinə minnətdarlığını bildirərək, bunu ölkələrimiz arasında...



Bax səh. 3

## PREZİDENT İLHAM ƏLİYEV ALMANİYA BUNDESTAQININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası...



Bax səh. 3




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 24 may 2019-cu il, cümə / № 094 (5469). Yeni Azərbaycan Partiyasının orqanı. Qiymıəti 40 qəpik


# Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib





## Prezidentin iş günü

İtaliya Respublikasının Prezidenti Sercio Mattarella Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

❖ ❖ ❖

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

❖ ❖ ❖

İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd əl-Useymin Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

❖ ❖ ❖

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

## Nizami Kino Mərkəzində "Mənim balaca şahzadəm" cizgi filminin təqdimatı olub

Mayın 23-də Nizami Kino Mərkəzində "Azanfilm" studiyasının istehsalı olan "Mənim balaca şahzadəm" cizgi filminin təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib. Təqdimatı Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının birinci katibi, Əməkdar incəsənət xadimi Cəmil Quliyev apararaq gənc rəssam Məryəm Ələkbərlinin fransız yazıçısı Antuan de Sent-Ekzüperin məşhur "Balaca şahzadə" əsərinə həsr edilmiş 30-a yaxın rəsm əsərinin olduğunu və dünyanın...

Bax səh. 2



## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA İFTAR MƏRASİMİNDƏ İŞTİRAK EDİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsindəki Pir Həsən ziyarətgahında təşkil olunan iftar mərasimində iştirak ediblər...

Bax səh. 2

## BAKIDA ALİ AUDİT QURUMLARININ BEYNƏLXALQ TƏŞKİLATININ DÖVLƏT BORCU ÜZRƏ İŞÇİ QRUPUNUN TOPLANTISI KEÇİRİLİR

Hesablama Palatasının təşkilatçılığı ilə mayın 23-də Bakıda Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının (INTOSAI) Dövlət Borcu üzrə İşçi Qrupunun (DBİQ) toplantısı işə başlayıb. AZƏRTAC xəbər verir ki, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov toplantının məqsədi, islahatlar dövründə dövlət borcunun idarə edilməsi və auditi mövzusunun hər bir ölkə üçün aktuallığından danışıb, ölkələr arasında dövlət auditi sahəsində əməkdaşlığın və təcrübə mübadiləsinin zəruriliyini vurğulayıb. Bildirib ki, müasir dövrün çağırışları hər bir istiqamətdə olduğu kimi, dövlət maliyyə inzibatçılığının təkmilləşməsini də tələb edir: "Dəyişən qlobal təsirlər dövlət borcunun idarə olunması ilə bağlı fəaliyyətə xüsusi tələblər qoyur. Dövlət borcunun idarə olunması, ilk növbədə, dövlət maliyyəsinin idarə edilməsi sisteminin xarakterik cəhətlərini özündə birləşdirir. Bu sahədə qarşıya qanunvericiliyin təkmilləşdirilməsi...

Bax səh. 6



## BAKIDA I AZƏRBAYCAN BEYNƏLXALQ HEMATOLOGİYA MÜTƏXƏSSİSLƏRİ KONQRESİ KEÇİRİLİR

Mayın 22-də Bakıda Talassemiya Mərkəzinin fəaliyyətə başlamasının 10 illiyinə həsr olunmuş I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresi öz işinə başlayıb...

Bax səh. 3

## Heydər Əliyev Mərkəzində dünya şöhrətli rəssam Zurab Seretelinin sərgisi açılıb

Mayın 22-də Heydər Əliyev Mərkəzində dünya şöhrətli rəssam Zurab Seretelinin "Mümkün ölçülər" (Possible Dimensions) adlı sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, Moskva Müasir İncəsənət Muzeyi və Rusiya Rəssamlıq Akademiyası ilə...



Bax səh. 4

## Heydər Əliyev Fondu müqəddəs Ramazan ayında rayonlarda iftar süfrələri təşkil edir

Heydər Əliyev Fondu mayın 22-də müqəddəs Ramazan ayında Şamaxı rayonunda iftar süfrəsi açıb. Qeyd edək ki, Heydər Əliyev Fondu tərəfindən Ramazan ayı ərzində bir sıra rayonlarda iftar süfrələri təşkil olunacaq. AZƏRTAC xəbər verir ki, Şamaxı Cümə məscidində açılan iftar süfrəsində 300-ə yaxın rayon sakini iştirak edib. Bildirilib ki, respublikamızda dövlət və din bir-birindən ayrı olsa da, Azərbaycan İslam dininə...

Bax səh. 3

### *Yohannes Kars:* Azərbaycanın həm paytaxtı, həm də bölgələri sürətlə inkişaf edir

Mayın 23-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının...



Bax səh. 4

### Konstitusiya Məhkəməsində Rusiyanın Qanunvericilik və Müqayisəli Hüquq İnstitutunun nümayəndə heyəti ilə görüş keçirilib

Ölkəmizdə səfərdə olan Rusiya Elmlər Akademiyasının vitse-prezidenti, Rusiya Federasiyası Qanunvericilik və...



Bax səh. 4

### *Akif Əlizadə:* Qafqaz tarixin bütün dövrlərində diqqət mərkəzində olub

Mayın 23-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun təşkilatçılığı ilə Bakıda Qafqazşünasların II Beynəlxalq Forumu işə başlayıb...



Bax səh. 5

### "Duzdağ" Fizioterapiya Mərkəzinin 40 illik yubileyi münasibətilə təltiflərin təqdimatı olub

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2019-cu il mayın 16-da "Duzdağ" Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında"...



Bax səh. 5

# Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib

Mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başlayıb.

Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək müqəddəs "Qurani-Kərim"in nazil olduğu, on bir ayın sultanı mübarək Ramazan ayı münasibətilə açılan iftar süfrəsinə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə və qonaqlara dərin minnətdarlığını bildirib.

Mərasimdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayev və Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete çıxış ediblər.





Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

Prezident İlham Əliyev artıq ənənə halı alan iftar mərasimlərinin dövlət-din münasibətlərinin bariz nümunəsinə çevrildiyini bildirib. **"Bu münasibətlərin təməlində Ulu Öndər Heydər Əliyev və Şeyx həzrətləri dayanır",** - deyən dövlətimizin başçısı onların şəxsi dostluğunun, xalq və Vətən qarşısında gördükləri işlərin bugünkü Azərbaycanın uğurlu inkişafına şərait yaratdığını vurğulayıb. Bildirib ki, dünyada gərginliyin davam etdiyi bir vaxtda Azərbaycanda sabitliyi qorumaq, xalqın rifahını yaxşılaşdırmaq və ölkəmizi mümkün risklərdən qorumaq bizim əsas vəzifəmizdir. **"Biz müasir dövlət qurmuşuq. O dövlət ki, dərin milli-mənəvi təməl üzərində qurulub",** - deyən Prezident İlham Əliyev İslam dəyərlərini milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsi kimi xarakterizə edib, Azərbaycanın İslamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya çatdırdığını və bu fəaliyyətin bundan sonra da davam etdiriləcəyini bildirib.

Dövlətimizin başçısı müsəlman ölkələri ilə dostluq və qardaşlıq əlaqələrinə malik Azərbaycanın bütün müsəlman ölkələri ilə sıx əlaqələr qurduğunu və beynəlxalq müstəvidə bir-birini daim dəstəklədiyini diqqətə çatdırıb, Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi İslam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verdiyini vurğulayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev bir daha vurğulayıb ki, Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. **"Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq",** - deyən dövlətimizin başçısı Cocuq Mərcanlı kəndinin və orada Şuşa məscidinin bənzərinin inşa olunmasının xalqımızın əyilməz ruhunu təcəssüm etdirdiyini bildirib. Qeyd edib ki, Azərbaycanda tarixi, dini abidələr qorunur və son illərdə yüzlərlə məscid tikilib, təmir edilib. Ölkəmizdə dinlərarası münasibətlər də ən yüksək səviyyədə tənzimlənir. Bütün dünya bu reallıqları bilir və qəbul edir. Bu gün Azərbaycan dünya miqyasında dinlərarası dialoqun aparıldığı mərkəzə çevrilib. Prezident İlham Əliyev Azərbaycanın uğurlu, dayanıqlı inkişafının bundan sonra da təmin olunacağını, ölkə qarşısında duran vəzifələrin icra ediləcəyini bildirib.

Sonra iftar süfrəsi açılıb.

# Birinci vitse-prezident Mehriban Əliyeva iftar mərasimində iştirak edib







Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsindəki Pir Həsən ziyarətgahında təşkil olunan iftar mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu yaxınlarda həmin ziyarətgahda olarkən iftar süfrəsinə dəvət edilmişdilər.

İftar mərasiminə toplaşanlar Azərbaycandakı sosial-iqtisadi inkişafa, əmin-amanlığa görə təşəkkürlərini bildiriblər. Onlar Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın ölkəmizim inkişafı istiqamətində gördükləri işləri yüksək qiymətləndiriblər, belə mərasimlərin tezliklə Qarabağda da keçiriləcəyinə əminliklərini ifadə ediblər.

Birinci vitse-prezident Mehriban Əliyeva Xəzər rayonunun sakinləri ilə görüşməkdən şad olduğunu bildirib, müqəddəs Ramazan ayında onların dualarının qəbul olunmasını və Allah-Təalanın ölkəmizi hər zaman qorumasını arzulayıb.

İftar mərasimində "Qurani-Kərim"dən ayələr və iftar duası oxunub.

Müqəddəs kitabımız olan "Qurani-Kərim"in nazil olduğu Ramazan ayı insanların qəlbini nurlandıran, onları sülhə, həmrəyliyə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda xeyirxah əməllərin, mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. Mübarək Ramazan günlərində gözəl ənənəyə çevrilən iftar süfrələrinin təşkil edilməsi də cəmiyyətimizin vahidliyinin, ümumi amallar naminə ölkəmizdə dövlətlə din arasında sıx birliyin bariz nümunəsidir. Ramazanın önəmli mərasimlərdən biri olan iftar süfrələrinin mənası, sadəcə, ehtiyacı olanlara yemək vermək deyil, paylaşmaq, yaxınlaşmaq, birlikdə Allaha dua etməkdir. Azərbaycan dövləti çox möhkəm milli dəyərlər üzərində qurulub. İslam dəyərləri isə milli dəyərlərimizin ayrılmaz tərkib hissəsidir.

# Nizami Kino Mərkəzində "Mənim balaca şahzadəm" cizgi filminin təqdimatı olub







Mayın 23-də Nizami Kino Mərkəzində "Azanfilm" studiyasının istehsalı olan "Mənim balaca şahzadəm" cizgi filminin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.

Təqdimatı Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının birinci katibi, Əməkdar incəsənət xadimi Cəmil Quliyev açaraq gənc rəssam Məryəm Ələkbərlinin fransız yazıçısı Antuan de Sent-Ekzüperin məşhur "Balaca şahzadə" əsərinə həsr edilmiş 30-a yaxın rəsm əsərinin olduğunu və dünyanın bir çox nüfuzlu sərgi salonlarında bu əsərlərin nümayiş etdirildiyini diqqətə çatdırıb. Bu əsərlərin təsiri altında həmin bu animasiya filmi ərsəyə gəlib. Animasiya növü yaradıcı insanın xəyallarını canlandırmağa geniş imkanlar açır.

Məryəm Ələkbərlinin zəngin rəssamlıq dünyasından söhbət açan Xalq yazıçısı Elçin Əfəndiyev bildirib ki, animasiya filminin qəhrəmanı ilə Məryəmin mənəvi aləmi üst-üstə düşür. "Balaca şahzadə" dünya uşaq ədəbiyyatının klassik nümunəsidir. Bu filmin yaranmasının əsas səbəbi bu bağlılıq olub. Film üzərində çox istedadlı yaradıcı kollektiv çalışıb və ekran əsəri yeni texnologiyalar əsasında il yarım ərzində ərsəyə gəlib.

"Azanfilm" studiyasının direktoru Mansur Şəfiyev cizgi filmi barədə məlumat verib. Bildirib ki, cizgi filminin ideya müəllifi Xalq yazıçısı Elçin Əfəndiyev, prodüseri Müşfiq Hətəmov, rejissoru Arif Məhərrəmovdur. Filmin çəkilişlərində Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında 2014-cü ildə istehsal olunan "Sirr" filminin materiallarından istifadə edilib.

Sonra animasiya filmi nümayiş olunub.

# Prezident İlham Əliyev Çinin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Çin Xalq Respublikasının xarici işlər naziri Van Yinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Çində keçirilən ikinci "Bir kəmər, bir yol" Beynəlxalq Forumuna dəvətə görə Çin tərəfinə minnətdarlığını bildirərək, bunu ölkələrimiz arasında dostluq münasibətlərinin göstəricisi kimi dəyərləndirib. Prezident İlham Əliyev Forumun uğurla keçirilməsi və bu mötəbər beynəlxalq tədbirdə qəbul olunan qərarlar münasibətilə təbriklərini çatdırıb. Dövlətimizin başçısı, eyni zamanda, Çin Xalq Respublikasının Sədri Si Cinpinin 28 May - Respublika Günü münasibətilə təbrik məktubunu göndərməsi ilə bağlı minnətdarlığını çatdırmağı xahiş edib. Prezident İlham Əliyev bildirib ki, Çinə son səfəri zamanı Çin Prezidenti ilə keçirilən görüşlər və aparılan səmərəli müzakirələr əlaqələrimizin strateji xarakter daşıdığını bir daha təsdiq edib. Dövlətimizin başçısı Çin Xalq Respublikasının xarici işlər nazirinin ölkəmizə səfərinin Azərbaycan ilə Çin arasında əməkdaşlığın çox yüksək səviyyədə olmasını nümayiş etdirdiyini bildirib. Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan Çini daim onun üçün vacib olan məsələlərdə dəstəkləyir. İkitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu və iqtisadi-ticari sahədə əməkdaşlığımızın yaxşı perspektivlərə malik olduğunu qeyd edib. Prezident İlham Əliyev bir daha Çin Xalq Respublikasına səfərini xatırlayaraq, orada Çinin aparıcı şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlərin ölkələrimiz arasında ticarət, investisiya sahələrində və digər sahələrdə əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan Asiya və Avropa arasında vacib tranzit məntəqəsinə çevrilib və nəqliyyat sahəsinin inkişaf etdirilməsi ölkəmizin prioritetlərindən biridir. Prezident İlham Əliyev deyib ki, Azərbaycan "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyən ölkələrdən biri olub və ölkəmizin nəqliyyat infrastrukturundan bu layihə çərçivəsində nəqliyyat daşımaları üçün istifadə edilə bilər.

Xarici işlər naziri Van Yi Çin Xalq Respublikasının Sədri və onun qeyd etdiyi kimi, Prezident İlham Əliyevin dostu Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdırıb. Qonaq Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu ifadə edərək, Bakının dünyada məşhur şəhər olduğunu və ilk saatlardan paytaxtımızın gözəlliyinin dərin təəssürat bağışladığını deyib. O bildirib ki, Çin-Azərbaycan əlaqələri strateji xarakter daşıyır və ölkəsi Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Van Yi qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda siyasi və sosial sabitlik təmin olunub, ölkəmiz iqtisadi baxımdan davamlı inkişaf edir, əhalinin rifah halı ardıcıl surətdə yüksəlir, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daim artır və möhkəmlənir. Ölkəmizin uğurlarının Çində maraqla izlənildiyini bildirən qonaq əldə olunan bu nailiyyətlər və eyni zamanda, qarşıdan gələn 28 May - Respublika Günü münasibətilə təbriklərini çatdırıb.

Dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını Çin dövlətinin başçısına çatdırmağı xahiş edib.

Söhbət zamanı "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycan və Çin arasında əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulanıb, nəqliyyat, enerji, sənaye, turizm və informasiya-kommunikasiya texnologiyaları sahələrində əlaqələrin inkişafına dair geniş fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev Almaniya Bundestaqının nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin regionlardan başlamasının qonaqların Azərbaycan haqqında daha geniş məlumata malik olmaları üçün yaxşı imkan yaratdığını bildirib. İkitərəfli münasibətlərə toxunan Prezident İlham Əliyev Almaniya Kansleri Angela Merkelin Azərbaycana ilk səfərini xatırlayaraq, bunu əlaqələrimizin inkişafında tarixi hadisə kimi dəyərləndirib və səfərin çox uğurla keçdiyini qeyd edib. Eyni zamanda, Prezident İlham Əliyev özünün də Almaniyaya səfərlərinin münasibətlərimizin möhkəmləndirilməsinə töhfə verdiyini bildirib. Dövlətimizin başçısı əməkdaşlığımızın çox yüksək səviyyədə və yaxşı perspektivlərə malik olduğunu deyib. Prezident İlham Əliyev ölkələrimizin biznes dairələri arasında da əlaqələrin uğurla inkişaf etdiyini, ölkəmizdə xeyli sayda Almaniya şirkətlərinin müxtəlif layihələrdə iştirakının önəmini vurğulayıb. Dövlətimizin başçısı parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərimizin inkişafı baxımından rolunu qeyd edib.

Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Kars paytaxt Bakının və ölkəmizin regionlarının onlarda böyük təəssürat yaratdığını deyib, həmçinin Qəbələyə səfərləri zamanı məcburi köçkünlərlə görüşdüklərini və Azərbaycan hökuməti tərəfindən onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərlə tanış olduqlarını bildirib. Yohannes Kars Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkə olduğunu xüsusi vurğulayıb.

Görüşdə parlamentlərarası əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin inkişafında mühüm əhəmiyyət daşıdığı bildirilib, Azərbaycan və Almaniya arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

# Bakıda I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresi keçirilir

## *Konqres Talassemiya Mərkəzinin fəaliyyətə başlamasının 10 illiyinə həsr olunub*





Mayın 22-də Bakıda Talassemiya Mərkəzinin fəaliyyətə başlamasının 10 illiyinə həsr olunmuş I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresi öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Səhiyyə Nazirliyinin, Heydər Əliyev Fondunun, Talassemiya Mərkəzinin və Azərbaycan Hematologiya Mütəxəssisləri İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən konqresin açılışında çıxış edən Talassemiya Mərkəzinin icraçı direktoru Valeh Hüseynov bildirib ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Talassemiya Mərkəzinin fəaliyyətə başlamasının 10 ili tamam olur. Talassemiya Mərkəzi Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa edilib. 2009-cu ildən istifadəyə verilən mərkəzin bu xəstəliyə düçar olan şəxslərin müalicəsində mühüm rol oynadığı diqqətə çatdırılıb. Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı dövlət proqramları və sərəncamlar əsasında ötən müddətdə Talassemiya Mərkəzinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində geniş işlər həyata keçirilib.

Mərkəzin icraçı direktoru bildirib ki, Prezident İlham Əliyevin 2018-ci ilin noyabrında "Talassemiya Mərkəzinin Yeni Nəsil Sekvenləşdirmə laboratoriyaları ilə təchiz olunmasına dair" imzaladığı Sərəncam çərçivəsində artıq müasir avadanlıqlar alınıb və yaxın zamanda mərkəzdə bu cihazların quraşdırılması prosesi başa çatacaq. Bununla da Talassemiya Mərkəzi nəinki ölkəmizin, eləcə də regionun ən müasir genetik diaqnostika mərkəzi olacaq və genetik diaqnostika üçün respublikamızın hüdudlarından kənara müraciət etməyə ehtiyac qalmayacaq.

Profili və genetik diaqnostika imkanları üzrə regionda xüsusi yeri olan Talassemiya Mərkəzi elmi araşdırma və hematoloji xəstəliklərlə mübarizə sahəsində əlaqələri artırmaq məqsədilə bir sıra ölkələrlə iş birliyinə başlayıb. Beynəlxalq əlaqələr çərçivəsində xarici ölkələrin aparıcı mütəxəssislərinin Talassemiya Mərkəzinə səfərləri, birgə elmi toplantılar, elmi-praktik seminarlar, eləcə də yerli mütəxəssislərin müasir mərkəzlərdə uzunmüddətli kursları təşkil edilir.

Valeh Hüseynov görülən işlərin hematoloji xidmətin müxtəlif sahələrinin inkişafına ciddi təkan verdiyini diqqətə çatdırıb. Bildirib ki, qarşılıqlı səfərlər dünyanın müxtəlif ölkələrindən olan elm adamları ilə iş birliyi və təcrübə mübadiləsi baxımından müvəffəqiyyətli keçib, ölkəmizdə hematologiya sahəsinin inkişafı baxımından hematoloqları birləşdirəcək elmi cəmiyyətin qurulmasını və mütəmadi elmi konqreslərin təşkil olunmasını zəruri edib. Bu baxımdan Azərbaycan Hematologiya Mütəxəssisləri İctimai Birliyinin ölkəmizin hematologiya sahəsində çalışan mütəxəssislərini bir araya toplayacağına, I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresinin bu baxımdan əhəmiyyətli rol oynayacağına əminlik ifadə olunub.

V.Hüseynov Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2005-ci ildən həyata keçirilən "Talassemiyasız həyat naminə" layihəsi barədə məlumat verib. Qeyd olunub ki, layihənin məqsədi həm mövcud xəstələrin keyfiyyətli müalicə almasını təşkil etmək, həm də bu sahədə maarifləndirmə işini aparmaqdır.

Talassemiya Mərkəzinin Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə birgə bu il ərzində ölkənin müxtəlif regionlarında - Mingəçevir, Qax, Şirvan, Lənkəran, Quba, Bərdə və Gəncə şəhərlərində "Talassemiyasız həyat naminə" devizi ilə 7 elmi simpozium keçirdiyi bildirilib. Qeyd olunub ki, regional simpoziumlar çərçivəsində talassemiya daşıyıcılığının müəyyən olunması məqsədilə ödənişsiz tibbi müayinələr həyata keçirilib. Müraciət edənlərdən götürülmüş qan nümunələri Talassemiya Mərkəzində müayinədən keçirilib. Regionların ardından sonuncu - 8-ci simpozium isə I Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresi çərçivəsində mayın 25-də təşkil olunacaq.

Konqresin birinci günü Azərbaycanda ilk dəfə "Axın sitometriyası və sitogenetika" kursu keçirilib. Konqres çərçivəsində, həmçinin ölkəmizdə ilk dəfə olaraq "Tibb bacıları simpoziumu" təşkil olunacaq.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov ölkəmizdə beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsinin ənənə halını aldığını bildirib. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın səhiyyə sahəsinə daim diqqət yetirdiyini deyən komitə sədri irsi qan xəstəlikləri ilə mübarizədə görülən işlərdən, qəbul olunan dövlət proqramlarından danışıb. O, nikahdan əvvəl icbari müayinənin irsi qan xəstəliklərinin azalmasında rol oynadığını diqqətə çatdırıb. Komitə sədri gələn il yanvarın 1-dən ölkə ərazisində tətbiq olunacaq icbari tibbi sığortanın bu xəstəliklərin müalicəsinə töhfə verəcəyini vurğulayıb. Ə.Əmiraslanov hematologiya sahəsində gen səviyyəsində elmi tədqiqatlar aparıldığını, genişmiqyaslı proqram hazırlandığını qeyd edib.

Beynəlxalq Talassemiya Federasiyasının sədr müavini Maykl Anqastiniotis, Türk Elmlər Akademiyası - TÜBA-nın təmsilçisi Taner Demirer, Türk Hematologiya Dərnəyinin sədri Hayri Özsan, Koç Universiteti Xəstəxanasının professoru Burhan Fərhanoğlu çıxış edərək Azərbaycanda qan xəstəlikləri ilə mübarizədə həyata keçirilən tədbirləri yüksək qiymətləndiriblər. Tədbirin klinik araşdırmalarda son nailiyyətləri izləmək baxımından böyük imkan yaratdığını bildirən mütəxəssislər konqresin işinə uğurlar arzulayıblar.

Konqresin elmi katibi Ramin Bayramlı çıxış edərək tədbir barədə məlumat verib. O, konqresdə 22 ölkədən 939 nəfərin iştirak etdiyini və 146 məruzə təqdim edildiyini bildirib.

Sonra panel iclaslar keçirilib və məruzələr dinlənilib.

Konqres mayın 25-dək bölmə iclasları ilə davam edəcək.

# Heydər Əliyev Fondu müqəddəs Ramazan ayında rayonlarda iftar süfrələri təşkil edir





Heydər Əliyev Fondu mayın 22-də müqəddəs Ramazan ayında Şamaxı rayonunda iftar süfrəsi açıb. Qeyd edək ki, Heydər Əliyev Fondu tərəfindən Ramazan ayı ərzində bir sıra rayonlarda iftar süfrələri təşkil olunacaq.

AZƏRTAC xəbər verir ki, Şamaxı Cümə məscidində açılan iftar süfrəsində 300-ə yaxın rayon sakini iştirak edib.

Bildirilib ki, respublikamızda dövlət və din bir-birindən ayrı olsa da, Azərbaycan İslam dininə, İslam mədəniyyətinə mənsub ölkədir. Ruzi-bərəkət, həmrəylik, dostluq-qardaşlıq, sevgi və mərhəmət ayı hesab olunan Ramazan digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd edilir. Bu gün Azərbaycan dünya ölkələri üçün tolerantlıq nümunəsidir. Ölkəmizdə birlik və sabitlik hökm sürür, dini məbədlər təmir və bərpa olunur, islami və milli mənəvi dəyərlər qorunur.

Həmçinin Ali Baş Komandanın rəhbərliyi ilə bütün torpaqlarımızın tezliklə işğaldan azad olunacağına, o torpaqlarda da dini ayinlərin icra ediləcəyinə və iftar süfrələrinin açılacağına əminlik ifadə olunub.

İftar süfrəsi ətrafında on bir ayın sultanı olan Ramazanın fəzilətlərindən danışılıb, bu ayda görülməsi vacib sayılan xeyirxah əməllərdən, savab işlərdən söz açılıb. Ölkəmizə əmin-amanlıq və sülh arzulanıb, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların ruhuna dualar oxunub.

Qeyd edək ki, Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi Xəlifə Xalid ibn Vəliyədin dövründə onun qardaşı Müslüm ibn Vəliyədin Azərbaycana gəlməsinin şərəfinə 743-cü ildə inşa olunub. 1918-ci ildə silahlı erməni daşnak dəstələri tərəfindən törədilən mart qırğınları zamanı Şamaxıda da soyqırımı aktı həyata keçirilib. Ən böyük qırğın Cümə məscidində baş verib. Şamaxılıların Allah evi kimi məscidə sığındığını görən ermənilər burada yanğın törədərək, təqribən 1700 günahsız insanı qətlə yetiriblər. Sovet dövründə məlum səbəblərdən təyinatı üzrə istifadə edilməyən məscid məhv olmaq təhlükəsi ilə üzləşib. Azərbaycanın bütün sahələrdə inkişafına, o cümlədən milli mənəvi dəyərlərimizin qorunmasına böyük diqqət və qayğı ilə yanaşan Ulu Öndər Heydər Əliyevin tapşırığı və təşəbbüsü ilə 1980-ci ildə bu tarixi abidə təmir edilib.

Şamaxı Cümə məscidi daha sonra Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı təmir olunub. Bərpa və yenidənqurma işlərinə 2010-cu ilin martında başlanılıb. 2013-cü il mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məscidin açılış mərasimində iştirak edib.

# Heydər Əliyev Mərkəzində dünya şöhrətli rəssam Zurab Seretelinin sərgisi açılıb








Mayın 22-də Heydər Əliyev Mərkəzində dünya şöhrətli rəssam Zurab Seretelinin "Mümkün ölçülər" (Possible Dimensions) adlı sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, Moskva Müasir İncəsənət Muzeyi və Rusiya Rəssamlıq Akademiyası ilə birgə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihə müəllifin 85 illik yubileyinə həsr olunmuş sərgilər silsiləsinin davamıdır.

Sərginin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov çıxış edərək sərginin əhəmiyyətindən danışıb. Qeyd edib ki, Heydər Əliyev Mərkəzində Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Seretelinin sərgisinin təşkili əlamətdar hadisələrdəndir. Görkəmli rəssamla Heydər Əliyev Fondunu və Heydər Əliyev Mərkəzini uzun illərdir dostluq və əməkdaşlıq əlaqələrinin bağladığını deyən Anar Ələkbərov, bu günədək rəssamla bir neçə layihənin həyata keçirildiyini vurğulayıb. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə görkəmli rəssamın "Dostluq" ordeninə layiq görüldüyünü deyən Anar Ələkbərov, onu bu münasibətlə təbrik edib, yeni yaradıcılıq uğurları arzulayıb.

Mədəniyyət naziri Əbülfəs Qarayev deyib ki, dünya şöhrətli rəssam Zurab Seretelinin əsərlərindən ibarət sərginin Bakıda təqdim olunması paytaxtımızın mədəni həyatında mühüm hadisələrdən biridir. Qeyd edilib ki, Heydər Əliyev Fondu mütəmadi olaraq belə sərgilər təşkil etməklə, ölkəmizin mədəniyyətinin təbliği istiqamətində də çoxsaylı layihələr həyata keçirir, uğurlu addımlar atır. Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə görkəmli rəssamın əsərlərinin ilk dəfə ölkəmizdə sərgilənməsi münasibətilə onu təbrik edən nazir, rəssama bundan sonrakı yaradıcılığında uğurlar arzulayıb.

Sonra Əbülfəs Qarayev Zurab Sereteliyə "Dostluq" ordenini təqdim edib.

Zurab Sereteli çıxış edərək sərginin təşkilində göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna təşəkkür edib. Prezident İlham Əliyev tərəfindən Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə görə "Dostluq" ordeni ilə təltif edilməsini sevinc hissi ilə qarşıladığını deyən rəssam, indiyədək belə dəyərli mükafata sahib olmadığını da etiraf edib. O, göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirib.



Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı Ömər Eldarov Zurab Seretelinin yaradıcılığı haqqında məlumat verib. Onun istər sovetlər dönəmində, istərsə də müasir dövrdə sənət fəaliyyətindən söz açan Ö.Eldarov, rəssamın yaradıcılığının bənzərsizliyi haqqında danışıb, onu təbrik edib.

Sonra qonaqlar sərgi ilə tanış olublar.

Ekspozisiyada Moskva, Tbilisi və Londondan gətirilmiş 30-dan çox rəsm əsəri və heykəl nümayiş olunur.

Zurab Sereteli 1934-cü ildə Tbilisidə anadan olub. 1958-ci ildə Tbilisi Dövlət Rəssamlıq Akademiyasını bitirib. 1960-cı illərin sonlarında geniş dairədə tanınmağa, dövlət sifarişləri almağa başlayıb. Monumentallıq onun müxtəlif ölkələrdə ictimai sifarişlər əsasında yaratdığı heykəllərdə də diqqəti çəkir. Seretelinin müəllifi olduğu möhtəşəm heykəllər London, Moskva, Nyu-York, Paris, Roma, Tokio və digər şəhərlərdə ucaldılıb.

Seretelini dünya vətəndaşı adlandırmaq olar. Onun emalatxanaları doğulduğu Tbilisi şəhərində, Moskva, Paris və Nyu-Yorkda yerləşir. Bu dörd şəhərin hər birində işləmək onun fərdi üslubunun formalaşmasına səbəb olub. Fransada Pablo Pikasso və Mark Şaqalla görüşü onun yaradıcılıq prosesinə baxışlarını köklü surətdə dəyişib. Ustadların rəssamlıq və qrafikadan keramika və heykəltəraşlığa asanlıqla keçmələri onu yeni əsərlər seriyası yaratmağa ilhamlandırıb. Parisdə Pikassonun emalatxanasını ziyarət etdikdən sonra çəkdiyi "İnessa" (1968) əsərində fransız rəssamın təsiri aydın nəzərə çarpır. Seretelinin "Mənim sevimli rəssamlarım" (2009) adlı məşhur heykəli Pablo Pikasso, Amedeo Modilyani, Mark Şaqal və Vinsent Van Qoqu təsvir edir. Bundan bir il əvvəl isə o, Niko Pirosmani və Anri Russonun heykəltəraşlıq obrazlarını yaratmışdı.

Zurab Seretelinin yaradıcılığına rus rəssamları da təsir göstərib. Vasili Kandinskinin abstrakt ekspressionizmi və ya Kazimir Maleviçin suprematizmi Seretelinin qırmızı və göy boyalarının zəngin palitrasına transformasiya edib.

Heydər Əliyev Mərkəzində nümayiş olunan sərgi avqustun 25-dək davam edəcək.

## Yohannes Kars: Azərbaycanın həm paytaxtı, həm də bölgələri sürətlə inkişaf edir



Mayın 23-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Oqtay Əsədov bu səfərin əlaqələrimizin inkişafı baxımından əhəmiyyətli olacağına inamını ifadə edib. Bildirib ki, Azərbaycan tərəfi dostluq qruplarının qarşılıqlı səfərlərini yüksək qiymətləndirir.

Ölkələrimiz arasındakı münasibətlərin zəngin tarixindən danışan Oqtay Əsədov deyib ki, 2016-cı ildə Azərbaycan Prezidenti İlham Əliyev "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" Sərəncam imzalayıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra münasibətlərimiz yeni məna kəsb edib. Dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli rol oynayır. Bu günədək Azərbaycanla Almaniya arasında 77 hüquqi sənəd imzalanıb, 14 sənəd isə baxılmaqdadır.

Qeyd olunub ki, iqtisadi sahədə də münasibətlərimiz yüksələn xətlə inkişaf edir. Almaniya Azərbaycanın Avropada ən önəmli siyasi-iqtisadi tərəfdaşlarındandır.

Azərbaycan təşəbbüskarı və fəal iştirakçısı olduğu qlobal neft və qaz kəmərləri ilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında qətiyyətli mövqe nümayiş etdirir. Ölkəmiz Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının iştirakçısıdır.

Oqtay Əsədov Almaniya Bundestaqında və Milli Məclisdə parlamentlərarası əlaqələr üzrə qrupların fəaliyyət göstərməsinin təqdirəlayiq olduğunu diqqətə çatdırıb.

Dağlıq Qarabağ münaqişəsindən söz açan parlament sədri bildirib ki, münaqişənin tezliklə beynəlxalq hüquq normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həlli regionun iqtisadi tərəqqisinə böyük təkan verərdi.

Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Kars ölkəmizə səfərindən və keçirdikləri görüşlərdən məmnun qaldıqlarını qeyd edib. Bildirib ki, o, ölkəmizdə ilk dəfə 1999-cu ildə olub. Budəfəki səfərində müstəqil Azərbaycanın bölgələrinin və paytaxt Bakının sürətlə inkişaf etdiyini müşahidə edib. Bütün bunlar Azərbaycanın dostu kimi onları da sevindirir.

Yohannes Kars qeyd edib ki, Bundestaqla Milli Məclis arasında əməkdaşlığın genişlənməsi ümumi məqsədlərə xidmət edir. Qarşıya qoyulan hədəflərə çatmaq üçün parlament diplomatiyası əhəmiyyətli rol oynayır.

Qonaq Almaniya Bundestaqı sədrinin salamlarını Oqtay Əsədova çatdıraraq, Almaniya parlamentində Azərbaycanın qanunvericilik orqanı ilə əlaqələrin inkişafına böyük maraq olduğunu söyləyib.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis aparatının rəhbəri Səfa Mirzəyev, Almaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Xanlar Fətiyev, ölkəmizin Almaniyadakı səfiri Ramin Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

## Konstitusiya Məhkəməsində Rusiyanın Qanunvericilik və Müqayisəli Hüquq İnstitutunun nümayəndə heyəti ilə görüş keçirilib



Ölkəmizdə səfərdə olan Rusiya Elmlər Akademiyasının vitse-prezidenti, Rusiya Federasiyası Qanunvericilik və Müqayisəli Hüquq İnstitutunun direktoru, akademik Taliya Xabriyevanın başçılıq etdiyi nümayəndə heyəti ilə mayın 23-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində görüş keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nümayəndə heyətinin Azərbaycana səfərindən məmnunluğunu bildirən Konstitusiya Məhkəməsinin Sədri Fərhad Abdullayev səfər çərçivəsində keçirilən səmərəli görüşlərin ölkələrimiz arasında elm sahəsində əməkdaşlığın inkişafı baxımından əhəmiyyətini vurğulayıb.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verən Fərhad Abdullayev bildirib ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və müəllifliyi ilə 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunmasından dərhal sonra məhkəmə-hüquq sahəsində genişmiqyaslı islahatların həyata keçirilməsinə başlanılıb. Konstitusiyanın qəbulundan üç il sonra - 1998-ci ildə Ümummilli Lider Heydər Əliyevin Fərmanına əsasən, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi formalaşdırılıb və bu sahədə mütərəqqi beynəlxalq təcrübəni nəzərə almaqla fəaliyyətə başlayıb.

Sədr vurğulayıb ki, Konstitusiya Məhkəməsi fəaliyyətində Ulu Öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin prioritetini - "hər şey xalq üçün, hər şey insanlar üçün" prinsipini əsas götürərək Konstitusiya Məhkəməsinə vətəndaşlar tərəfindən verilən şikayətlərə, digər müraciətlərə xüsusi diqqətlə yanaşır.

Nümayəndə heyətinin rəhbəri, Qanunvericilik və Müqayisəli Hüquq İnstitutunun direktoru Taliya Xabriyeva bu görüşün böyük önəm daşıdığını deyib. Qonaq ölkələrimiz arasında hüquqi sahədə təcrübə mübadiləsinin vacibliyini qeyd edərək, eləcə də elm sahəsində mövcud olan ənənəvi əlaqələrin əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı əsas olduğunu bildirdi. Taliya Xabriyeva Azərbaycan Respublikası Prezidenti İlham Əliyev ilə yaxın günlərdə keçirilən görüşü xatırladaraq xoş təəssüratlarından danışıb.

Rusiya Federasiyası Qanunvericilik və Müqayisəli Hüquq İnstitutunun fəaliyyəti barədə ətraflı məlumat verən qonaq ölkələrimizin Konstitusiya sistemlərində oxşarlığın olduğunu diqqətə çatdırıb. Yüksək qonaqpərvərliyə və ətraflı məlumata görə Konstitusiya Məhkəməsinin Sədri Fərhad Abdullayevə minnətdarlığını ifadə edən qonaqlar Azərbaycanın sürətli inkişafından və ölkəmizin gözəlliyindən məmnunluqlarını bildiriblər.

Sədr Fərhad Abdullayev Rusiya elminin son illər əldə etdiyi nailiyyətlərə toxunaraq, ölkələrimiz arasında elm sahəsində münasibətlərin uğurlu inkişafı, əlaqələrin genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Görüşdən sonra qonaqlar Konstitusiya Məhkəməsinin inzibati binası ilə tanış olublar.

# Akif Əlizadə: Qafqaz tarixin bütün dövrlərində diqqət mərkəzində olub

## Bakıda Qafqazşünasların II Beynəlxalq Forumu başlayıb









Mayın 23-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun təşkilatçılığı ilə Bakıda Qafqazşünasların II Beynəlxalq Forumu işə başlayıb. İki gün davam edəcək forumda Azərbaycan, Rusiya, Türkiyə, ABŞ, Belarus, Şimali Makedoniya, İran, Qazaxıstan, Özbəkistan, Ukrayna və Gürcüstandan 220-dən çox alim və tədqiqatçı iştirak edir.

Forum iştirakçıları Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, AMEA-nın Mərkəzi Elmi Kitabxanasında keçirilən tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə beynəlxalq forumun əhəmiyyətindən danışıb. Bildirib ki, birinci forumla müqayisədə bu il iştirakçıların sayının artması Azərbaycan qafqazşünaslıq elminə marağın göstəricisidir. Dünyanın çox ölkəsində Qafqazla bağlı araşdırmalar aparılır. Amma bu gün Azərbaycan, Bakı Qafqazın öyrənilməsi, Qafqaz problemlərinin araşdırılması sahəsində apardığı işlərə görə qafqazşünaslığın mərkəzinə çevrilir.

AMEA-nın prezidenti qeyd edib ki, Qafqaz tarixin bütün dövrlərində diqqət mərkəzində olub. Ümummilli Lider Heydər Əliyev Qafqaz problemlərindən danışarkən deyirdi: **"Qafqaz dünyanın böyük dövlətlərinin diqqət mərkəzindədir, dünyanın diqqətini cəlb edir".**

Akif Əlizadə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan çox azərbaycanlının daimi yaşayış yerlərindən didərgin salındığını deyib. Bildirib ki, Qafqaz regionunda mövcud olan bir çox problemlərin başlıca səbəbi Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasəti ilə bağlıdır. Akademik tədbirdə iştirak edən alim və mütəxəssisləri bu kimi problemlərə obyektiv yanaşmağa və onların həlli ətrafında öz səylərini birləşdirməyə çağırıb.

Forumun plenar və bölmə iclaslarında dinlənilən məruzələrin, aparılan müzakirələrin qafqazşünaslıq elminə töhfə verəcəyini deyən akademik Akif Əlizadə tədbir iştirakçılarına uğurlar arzulayıb.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxışında qeyd edib ki, Qafqaz ölkəsi olaraq yaşadığımız regionu, burada baş verən prosesləri dərindən öyrənməliyik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: **"Biz dünyada, bölgədə gedən prosesləri izləyərək çalışmalıyıq ki, ölkəmiz üçün riskləri nə qədər mümkünsə minimum səviyyəsinə endirək".**

AMEA-nın Qafqazşünaslıq İnstitutu bu sahədə mühüm işlər görür. Belə ki, institutda həm tədqiqatlar aparılır, həm də bu sahədə aparılan araşdırmalar sistemləşdirilir. Bu gün institut tərəfindən təşkil olunan forum Azərbaycan qafqazşünaslıq elmində atılan təqdirəlayiq addımdır. Ümid edirəm ki, forum qafqazşünaslıq elminin inkişafına müsbət təsir göstərəcək.

AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova forum çərçivəsində müxtəlif mövzularda müzakirələrin aparılacağını söyləyib. O, tədbirin sonunda müsbət nəticələrin əldə olunacağına əminliyini ifadə edib. Bildirib ki, forum Qafqaz tarixinin öyrənilməsində yeni səhifələrin açılmasına, innovativ ideyaların irəli sürülməsinə təkan verəcək. Eyni zamanda, görkəmli alimlərin birgə fəaliyyəti nəticəsində Qafqaz ölkələrində yaşayan xalqlar arasında qarşılıqlı anlaşma sürətlənəcək, dostluq münasibətləri daha da möhkəmlənəcək.

Akademik belə tədbirlərin həm azərbaycanlıların öz tarixini yenidən dərk etmələrinə, həm də ölkəmizin dünya tarixində rolunun və yerinin müəyyənləşməsinə müsbət təsir edəcəyini vurğulayıb.

Çıxışlardan sonra akademik Akif Əlizadənin sədrliyi ilə keçirilən plenar iclasda Milli Məclisin deputatı, Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı "Qafqazşünaslığın aktual problemləri: mövcud vəziyyət və perspektivlər" mövzusunda məruzə edib. Alim Qafqazşünaslıq İnstitutunda Qafqazın daha çox siyasi-ictimai və beynəlxalq münasibətlər müstəvisində öyrənildiyini qeyd edib. Bildirib ki, bu gün ABŞ-dan Çinə, Yaponiyaya qədər bütün ölkələrdə onlarla qafqazşünaslıq mərkəzi fəaliyyət göstərir. Qafqazın geosiyasi mövqeyi, Şərqlə Qərb arasında körpü rolunu oynaması, eləcə də Böyük İpək yolunun üzərində yerləşməsi bu regionun öyrənilməsinə göstərilən böyük marağın əsas səbəblərindəndir.

**"Bu gün zəngin təbii sərvətlərə və kifayət qədər beynəlxalq nüfuza malik olan Qafqazın başlıca problemi terrordur",** - deyən professor Ermənistanın Azərbaycana qarşı təcavüzü və onun nəticələrinin aradan qaldırılmasının həlli vacib olan məsələlərdən olduğunu diqqətə çatdırıb.

Forum 24 bölmə iclasını əhatə edir. Bölmələrdə "Qafqaz regionunda ictimai-siyasi proseslər", "Qafqazda münaqişələr və terror", "Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü", "Qafqaz ölkələrinin qarşılıqlı münasibətləri, xarici siyasəti və böyük dövlətlərin region siyasəti", "Qafqazda geosiyasi şərait", "Qafqazda sivilizasiyaların və mədəniyyətlərin qarşılıqlı əlaqəsi" mövzularında müzakirələr aparılacaq.

Xatırladaq ki, Qafqazşünasların I Beynəlxalq Forumu 2017-ci ildə keçirilib.

# Vüqar Rəhimzadə: Bu "qüvvələr" köhnə "üsullarla" ara qatmağa çalışırlar

Bu gün Azərbaycan beynəlxalq tədbirlərə, qitəmiqyaslı idman yarışlarına ev sahibliyi edir. Təbii ki, bu amil ölkəmizdə mükəmməl infrastrukturun mövcud olması ilə yanaşı, həyata keçirilən uğurlu siyasət, sabitlik, inkişaf və təhlükəsizliklə bağlıdır. Azərbaycanın malik olduğu bu müsbət dəyərlər onu dünyanın diqqət mərkəzində saxlamaqla yanaşı, beynəlxalq birliyin arzulanan bir üzvünə çevirib. Sözsüz ki, uğurlarımıza sevinənlərlə bərabər, gündən-günə yüksələn imicimizi qaralamağa, ləkələməyə çalışan "qüvvələr" də var. Erməni lobbisinin və onların havadarlarının əlində alətə çevrilən bu cür qərəzli dairələr zaman-zaman, fürsət düşdükcə öz çirkin planlarını həyata keçirməyə, anti-Azərbaycan kampaniyası aparmağa cəhd edirlər. Lakin heç vaxt öz istəklərinə çata bilmirlər. Çünki Azərbaycan xalqı və dövləti kifayət qədər tutarlı arqumentlərlə, haqq və həqiqətlərə söykənərək onların cavabını verir və yerində oturdur.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, bu günlərdə Bakıda UEFA Avropa Liqasının final matçının keçiriləcəyi ərəfədə "fəallaşan" bu "qüvvələr" yenə köhnə "üsullarla" ara qatmağa, ürək bulandırmağa çalışırlar: **"Söhbət "Amnisty International" təşkilatının UEFA Avropa Liqasının final matçının məhz Bakıda keçirilməsini pisləməsindən gedir. Hamıya bəllidir ki, "Amnisty International" bəzi xarici dairələrin əlində sadəcə alət rolunu oynayır, lazım gəldikdə bu üzdəniraq qurumdan "demokratiya", "insan hüquq və azadlıqları" adı altında bir sıra ölkələrə qarşı təzyiq vasitəsi kimi istifadə edilir. Nə üçün bu təşkilat Avropada baş verən haqsızlıqlara göz yumur, Azərbaycana və bəzi ölkələrə qarşı isə qərəzli, çirkin kampaniya aparır?! Ona görə də sifariş yerinə yetirən, korrupsiyalaşmış "Amnisty International" adlı qurumun demokratiyadan danışmağa haqqı yoxdur".**

İdmanın bu şəkildə siyasiləşdirilməsinin yolverilməz olduğunu bildirən "İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, bu cür "cəhdlərin" qarşısı qətiyyətlə alınır və bundan sonra da alınacaq.

# "Duzdağ" Fizioterapiya Mərkəzinin 40 illik yubileyi münasibətilə təltiflərin təqdimatı olub

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2019-cu il mayın 16-da "Duzdağ" Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb, Tədbirlər Planı təsdiq edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Duzdağ" Fizioterapiya Mərkəzinin 40 illik yubileyi münasibətilə təltiflər təqdim olunub.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: **"Naxçıvan Muxtar Respublikasının həyatında "Duzdağ" Fizioterapiya Mərkəzinin xüsusi rolu vardır. Ötən 40 ildə mərkəz uğurla fəaliyyət göstərmiş, kollektiv formalaşmışdır. Sovetlər Birliyi dövründə şəraitin olmaması həm müalicə alan xəstələr, həm də kollektiv üçün çətinliklər yaradırdı. Lakin müstəqillik illərində "Duzdağ" Fizioterapiya Mərkəzi yenidən qurularaq müasir səhiyyə müəssisəsinə çevrilmişdir. 50 çarpayı ilə fəaliyyətə başlayan mərkəzdə hazırda 500-ə yaxın xəstə eyni vaxtda müalicə alır. Hər il 4 minə yaxın insan mərkəzə müraciət edir. Vaxtilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olan mərkəz bu gün publik hüquqi şəxs kimi fəaliyyət göstərir. Kollektiv işini düzgün qurmuş, "Duzdağ" Fizioterapiya Mərkəzi muxtar respublikanın brendinə çevrilmişdir".**

Ali Məclisin Sədri deyib: **"Duzdağ" Fizioterapiya Mərkəzi bu gün muxtar respublikanın tanıdılması və təbliğində mühüm rola malikdir. Çünki təbii sərvətimiz olan duzdan həm məişətimizdə geniş istifadə olunur, həm də duz şaxtalarında yaradılmış səhiyyə müəssisəsi insanlara şəfa verir. Dünyanın müxtəlif ölkələrindən mərkəzə müraciət edən insanlar hərtərəfli müalicə almaqla yanaşı, eyni zamanda, Naxçıvanı da təbliğ edirlər. Bu da turizmin inkişafına töhfədir. Ölkələr adətən turizmin bir sahəsi üzrə ixtisaslaşırlar. Lakin bu gün Naxçıvan Muxtar Respublikasında turizmin müxtəlif növləri, o cümlədən sağlamlıq turizmi inkişaf edir. Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksinin inşası başa çatdıqdan sonra isə bu sahədə imkanlar daha da genişlənəcəkdir. Ona görə də təbii sərvətlərimizdən səmərəli istifadə edilməli, onlar elmi şəkildə öyrənilməli və gələcək nəsillərə çatdırılmalıdır".**

Ali Məclisin Sədri deyib: **"Qurmaq, yaratmaq işin bir tərəfidir. Əsas məsələ isə qurulanları qoruyub saxlamaq və onlardan səmərəli istifadə etməkdir. Muxtar respublikada sağlamlıq turizminin inkişafı və mövcud potensialın tanıdılması sahəsində ardıcıl tədbirlər görülmüş, internet saytları yaradılmış, bukletlər hazırlanmış və turların təşkilinə başlanılmışdır. "Duzdağ" Fizioterapiya Mərkəzinin elmi şəkildə araşdırılması da buranın tanıdılması və təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə bundan sonra da Naxçıvan duzunun müalicəvi əhəmiyyəti ilə bağlı elmi-tədqiqat işlərini davam etdirməsi və kitabların nəşr olunması tapşırılmışdır".**

Ali Məclisin Sədri Naxçıvan duzunun müalicəvi əhəmiyyəti ilə bağlı apardığı səmərəli tədqiqat işlərinə görə Azərbaycan Tibb Universitetinin "Klinik allerqologiya və immunologiya" kafedrasının müdiri, tibb elmləri doktoru, professor Lalə Allahverdiyevaya təşəkkür edib.

Qeyd olunub ki, "Duzdağ" Fizioterapiya Mərkəzinin gələcəkdə uğurla fəaliyyət göstərməsi bu gün işin düzgün qurulmasından asılıdır. Ona görə də kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və mərkəz bütün dünyada tanıdılmalıdır. Dünyanın bir çox ölkəsində duz şaxtalarından müalicə kimi istifadə olunur. Lakin "Duzdağ" Fizioterapiya Mərkəzinin dəniz səviyyəsindən 1100 metr yüksəklikdə yerləşməsi və təbii havalanma xəstələrdə sağalma faizinin yüksək olması ilə nəticələnir. Mərkəzdə müalicə alan xarici ölkə vətəndaşlarının təəssüratları da bunu bir daha təsdiq edir.

Ali Məclisin Sədri mərkəzin fəaliyyətinin genişləndirilməsinin daim diqqətdə saxlanılacağını bildirib, yubiley münasibətilə kollektivi təbrik edib və işlərində uğurlar arzulayıb.

Sonra təltiflər təqdim edilib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 22 may tarixli Sərəncamına əsasən "Duzdağ" Fizioterapiya Mərkəzinin əməkdaşlarından 1-i "Əməkdar həkim", 2-si "Əməkdar tibb işçisi", 3-ü "Rəşadətli əməyə görə" nişanı, tibb elmləri doktoru, professor Lalə Allahverdiyeva isə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunub.

Ali Məclisin Sədri fəxri adları və nişanları təqdim edib.

Təltif olunanlardan Darçın Eyvazova, Leyla Vəliyeva, Təranə Əliyeva, Sevda Həsənova və Zəminə İbrahimova minnətdarlıq edərək deyiblər ki, "Duzdağ" Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin qeyd olunması əlamətdar hadisədir. Bu münasibətlə təltif olunmağımız isə məsuliyyətimizi ikiqat artırır. Təltif olunanlar göstərilən etimadı layiqincə doğruldacaqlarına söz veriblər.

Tibb elmləri doktoru, professor Lalə Allahverdiyeva əməyinə verilən yüksək qiymətə görə Azərbaycan Tibb Universitetinin professor-müəllim heyəti adından Ali Məclis Sədrinə minnətdarlıq edərək deyib: "Dünyanın müxtəlif ölkələrində, o cümlədən ABŞ və Sinqapurda "Duzdağ" Fizioterapiya Mərkəzi haqqındakı məruzələrim böyük maraqla qarşılanıb. Çünki "Duzdağ" Fizioterapiya Mərkəzi dünyada unikal və analoqu olmayan sağlamlıq müəssisəsidir. Burada müalicə olunan xəstələrdə yüksək nəticə alınır". Lalə Allahverdiyeva Naxçıvan duzunun müalicəvi əhəmiyyəti ilə bağlı tədqiqat işlərini davam etdirəcəyini bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

# Bakıda MDB ölkələri Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq-Mühafizə Bölmələri Başçıları Komitəsinin iclası keçirilib

Mayın 23-də Bakıda Müstəqil Dövlətlər Birliyi (MDB) dövlətlərinin Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq-Mühafizə Bölmələri Başçıları Komitəsinin 19-cu iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, iclasda MDB-yə üzv ölkələrin - Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Özbəkistanın gömrük xidmətlərinin hüquq-mühafizə bölmələrinin başçıları, eləcə də müşahidəçi qismində Latviya və Estoniya gömrük xidmətlərinin hüquq-mühafizə bölmələrinin rəhbərləri, həmçinin MDB-yə üzv dövlətlərin Terrorizmə Qarşı Mübarizə Mərkəzinin, Mütəşəkkil Cinayətkarlığa və Digər Təhlükəli Cinayət Növlərinə Qarşı Mübarizənin Əlaqələndirilməsi Bürosunun və Müstəqil Dövlətlər Birliyinin sərhəd qoşunlarına rəhbərlik edən Şuranın əlaqələndirmə xidmətinin nümayəndələri iştirak ediblər.

İclasda Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev qeyd edib ki, Azərbaycan Gömrük Xidməti gömrük işinin hüquq-mühafizə sahəsinə xüsusi diqqət göstərir, bu sahədə regional və beynəlxalq əməkdaşlığa böyük önəm verir.

Ə.Abdullayev Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi iqtisadi inkişaf strategiyasının nəticəsi olaraq ölkənin gömrük orqanlarının sürətlə inkişaf etdiyini vurğulayıb, bütün sahələrdə olduğu kimi, qaçaqmalçılığın, hüquqpozmaların qarşısının alınması istiqamətində də mühüm nailiyyətlərin əldə olunduğunu diqqətə çatdırıb. Son illər gömrük sistemində aparılan islahatların, "Yaşıl dəhliz" buraxılış sisteminin tətbiqinin ticarətin asanlaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi, şəffaflığın təmin olunması ilə yanaşı, qaçaqmalçılığa qarşı mübarizə tədbirlərinin də effektivliyinin artırılmasında, təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığı qeyd edilib. O, iclasda aparılan müzakirələrin təcrübə mübadiləsinin və hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsinə, iştirakçı ölkələrin hüquq-mühafizə sahəsindəki fəaliyyətinə fayda verəcəyinə əminliyini ifadə edib.

Rusiya Federasiyası Federal Gömrük Xidməti rəhbərinin müavini Oleq Qubaydulin iclasın səmərəli keçirilməsi üçün yaradılan şəraitə, diqqət və qayğıya görə Azərbaycan hökumətinə, eləcə də Dövlət Gömrük Komitəsinin rəhbərliyinə təşəkkürünü bildirib.

O.Qubaydulinin sədrliyi ilə keçirilən iclasın gündəliyinə əsasən, əvvəlcə Komitənin fəaliyyət strategiyasının reallaşdırılması ilə bağlı vəziyyət barədə iclas sədrinin məlumatı dinlənilib.

Daha sonra Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsi rəisinin birinci müavini, gömrük xidməti general-mayoru Güloğlan Muradlı "Gömrük sahəsində cinayət və hüquqpozmaların qarşısının alınması işinin təşkili üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin təcrübəsi" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dayanıqlı və davamlı inkişaf strategiyasına uyğun olaraq ölkənin sürətlə inkişaf etdiyi, xarici ticarət dövriyyəsinin, Azərbaycan üzərindən həyata keçirilən tranzit daşımalarının və ölkəyə səyahət edənlərin sayının artdığı vurğulanıb. Gömrük sistemində həyata keçirilən islahatlar barədə də məlumat verilib, tətbiq edilən yeniliklərin qaçaqmalçılıq və hüquqpozmalara qarşı mübarizə sahəsində mühüm nailiyyətlərin əldə edilməsinə şərait yaratdığı diqqətə çatdırılıb.

Eyni zamanda, təqdimatda Azərbaycan gömrüyünün hüquq-mühafizə sahəsindəki fəaliyyəti - yeniliklər və islahatların müsbət təsiri, qaçaqmalçılığın və narkotik maddələrin dövriyyəsinə qarşı mübarizə istiqamətində əldə olunan nəticələr, müasir informasiya texnologiyalarının tətbiqi və digər məsələlərlə bağlı məlumat verilib.

Sonra digər iştirakçı ölkələrin nümayəndələrinin çıxışları dinlənilib, iclasın gündəliyindəki məsələlər müzakirə olunub.

# Statistika Şurasının növbəti iclası keçirilib



Mayın 23-də Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov iclasın gündəliyində duran məsələlər barədə Şura üzvlərini məlumatlandırıb. Bildirib ki, Dövlət Statistika Komitəsi rəsmi statistika məlumatlarının müasir tələblərə uyğun hazırlanmasına, ölkədə statistika sisteminin təkmilləşdirilməsi və inkişafına, həmçinin statistik məlumatlara olan inamın artırılmasına nail olmaq üçün rəsmi statistika məlumatlarının istehsalı və yayılması sahəsində innovasiyaların tətbiqinə xüsusi önəm verir. Bununla yanaşı, dayanıqlı inkişafı məqsədləri üzrə statistik məlumatların əldə edilməsi, inzibati məlumatlardan rəsmi statistika məqsədləri üçün istifadə imkanlarının artırılması üzrə dövlət orqanlarının məlumat bazalarının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına inteqrasiyası, respondentlərin üzərinə düşən məlumat yükünün azaldılması, rəsmi statistika materiallarının istehsalı prosesinə çəkilən xərclərin optimallaşdırılması yolu ilə onun səmərəliliyinin yüksəldilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Komitə sədri son illərdə həyata keçirilmiş struktur islahatları haqqında Şura üzvlərinə məlumat verərək qeyd edib ki, beynəlxalq təcrübə nəzərə alınaraq statistik proseslərin standartlaşdırılması, məlumatların yayım sisteminin təkmilləşdirilməsi, respondentlərə düşən yükün azaldılması, irihəcmli məlumatlardan (big data) istifadə və digər istiqamətlərdə müəyyən edilmiş tədbirlər də uğurla icra olunur.

Daha sonra komitə sədrinin müavini Yusif Yusifov "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi üzrə innovativ inkişafın dəstəklənməsi sahəsində mövcud vəziyyət", Keyfiyyətin idarə edilməsi və metaməlumatlar şöbəsinin müdiri Vüqar Məmmədəlizadə isə "İnzibati məlumatların istehsalı proseslərinin GSBPM-ə uyğunluq səviyyəsinin müəyyən edilməsinin metodologiyası və qiymətləndirmə (sorğu) vərəqinin layihəsi" haqqında ətraflı məlumat veriblər.

Müzakirələrlə davam edən Şura iclasında mövzu ilə bağlı təkliflər səsləndirilib, müvafiq qərarlar qəbul edilib.

# Bakıda Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının Dövlət Borcu üzrə İşçi Qrupunun toplantısı keçirilir





Hesablama Palatasının təşkilatçılığı ilə mayın 23-də Bakıda Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının (INTOSAI) Dövlət Borcu üzrə İşçi Qrupunun (DBİQ) toplantısı işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov toplantının məqsədi, islahatlar dövründə dövlət borcunun idarə edilməsi və auditi mövzusunun hər bir ölkə üçün aktuallığından danışıb, ölkələr arasında dövlət auditi sahəsində əməkdaşlığın və təcrübə mübadiləsinin zəruriliyini vurğulayıb. Bildirib ki, müasir dövrün çağırışları hər bir istiqamətdə olduğu kimi, dövlət maliyyə inzibatçılığının təkmilləşməsini də tələb edir: **"Dəyişən qlobal təsirlər dövlət borcunun idarə olunması ilə bağlı fəaliyyətə xüsusi tələblər qoyur. Dövlət borcunun idarə olunması, ilk növbədə, dövlət maliyyəsinin idarə edilməsi sisteminin xarakterik cəhətlərini özündə birləşdirir. Bu sahədə qarşıya qanunvericiliyin təkmilləşdirilməsi, idarəetmə strukturunun gücləndirilməsi məsələləri ortaya çıxır. Dövlət borcuna nəzarətin həyata keçirilməsi, bu nəzarətin mütəmadi və çoxkontekstli aspektdən tətbiqi qeyd olunan istiqamətlərə qədər xüsusi əhəmiyyət edir. Dövlət borcunun idarə edilməsi sisteminin institusional bazasının gücləndirilməsi maliyyəçiləri bir çox məsələlərə diqqət yetirməyə sövq edir. Əsas məsələlər dünya və ölkədə formalaşan makroiqtisadi və maliyyə institutlarının inkişaf səviyyəsi, dövlət maliyyəsinin planlaşdırma xüsusiyyətləri, dövlətin iqtisadi hədəfləri və dövlət auditi institutunun formalaşmasıdır. İnkişaf səviyyəsi dövlət maliyyəsini idarəetmə xüsusiyyətlərindən asılı olmayaraq dövlət borcuna nəzarətin əhəmiyyəti İşçi Qrupunun bugünkü toplantısındakı nümayəndə heyətinin geniş tərkibi ilə də öz təsdiqini tapır".**

Qeyd edib ki, Azərbaycan Hesablama Palatası da daxil olmaqla 28 ölkənin heyətinin və bu heyətin birləşdirdiyi 55 nümayəndənin iştirakı məhz dövlət borcunun auditinin keyfiyyətinin yüksəldilməsi məsələsinin diqqətdə olduğunu göstərir. Dövlət borcu kənar dövlət maliyyə nəzarətinin əhatəsinə daxil olan mühüm aspektdir: **"Bugünkü tədbir çərçivəsində müxtəlif fikirləri və təcrübələri müzakirə edəcəyik. Dövlət borcunun düzgün idarə edilməsi dövlətə büdcə xərclərinin strukturunun optimallaşması imkanları verməklə yanaşı, borc öhdəliklərinin rasional səviyyədə minimallaşmasına da xidmət edir. Başqa cür ifadə etsək, dövlət borcunun düzgün idarə edilməsi müəyyən olunan zaman çərçivəsində borcun qaytarılması və digər istiqamətdə büdcənin maliyyələşmə imkanlarını genişləndirir. Nəticədə hökumətlər dövlət fondlarının vəsaitlərinin INTOSAI-ın ISSAI standartlarında qeyd edildiyi kimi, yarana biləcək iqtisadi və fiskal risklərdən qorunmağa nail olurlar. İqtisadi təhlükəsizliyin təmin edilməməsi dövlət maliyyə resursları həcminin əhəmiyyətli şəkildə azalması, eyni zamanda, borcun iqtisadi inkişafa təşviq edəcək maliyyə aləti rolundan dövlətin borclanma öhdəliklərinin miqyasının genişlənməsinə səbəb ola bilər. Məhz bu səbəbdən dövlət borcunun strukturunun geniş təhlili və davamlı audit tədbirləri yarana biləcək təhdidlərin qarşısının alınmasına yönəldilməlidir. Tədbirin keçirilməsində məqsəd bu iki aspektin birgə tandemini mütərəqqi üsulların köməyi ilə təmin olunmasında bilik və bacarıqlarımızın genişləndirilməsidir. Bugünkü tədbirin INTOSAI çətiri altında keçirilməsi bu istiqamətdə əlavə imkanların yaranmasına, ikitərəfli və çoxtərəfli əməkdaşlığın güclənməsinə təkan verir".**

Filippin Audit Komissiyasının və INTOSAI-ın Dövlət Borcu üzrə İşçi Qrupunun sədri Maykl Aquinaldo çıxışında çoxtərəfli və ikitərəfli əməkdaşlığın ali audit qurumlarının fəaliyyətində rolundan danışıb, toplantının işinə uğurlar arzulayıb. Qeyd edib ki, INTOSAI dövlət borcu üzrə ixtisaslaşmış bir qrupa keçirilib: müsbət praktikanı paylaşır, xüsusi təlimatlar, o cümlədən dövlət borcunun idarəedilməsinin yüksək səviyyədə həyata keçirilməsi üçün bu istiqamətdə bir sıra məlumatlar verir: **"İşçi Qrupu, eyni zamanda, borc öhdəliyinin yoxlanılması və digər borc məsələsi ilə məşğul olan digər institutlarla müsbət təcrübənin paylaşılmasında iştirak edəcək. Bizim builki mövzumuz effektiv bilik paylaşılması vasitəsilə dövlət borcunun idarəedilməsində yüksək standartlara nail olunmasına həsr olunub. Toplantıda xüsusilə bilik paylaşılma strategiyaları vasitəsilə dövlət borcunun idarəedilməsi ilə bağlı konkret təcrübələr göstəriləcək".**

M.Aquinaldo toplantının təsdiq edilmiş gündəliyinə əsasən, İşçi Qrupunun fəaliyyəti haqqında hesabat təqdim edib.

INTOSAI-ın İdarə Heyətinin təsis etdiyi Dövlət Borcu üzrə İşçi Qrupunun əsas məqsədi standartların təqdim edilməsi, qabaqcıl təcrübə mübadilələrinin təşkili, qarşılıqlı maraq və problemli məsələlərə dair tədqiqat aparmaq da daxil olmaqla bilik mübadiləsi vasitəsilə Ali Audit Qurumlarının əməkdaşlığı və davamlı inkişafıdır.

Qeyd edək ki, 25 il ərzində INTOSAI Bilik Mübadiləsi Komitəsinin nəzdində fəaliyyət göstərən və 34 üzv Ali Audit Qurumundan ibarət olan İşçi Qrupuna sədrliyi 2017-ci ildə Fillippin Audit Komissiyası öz üzərinə götürüb.

Sonra INTOSAI Dövlət Borcu üzrə İşçi Qrupunun yeni üzv ölkələri və onları təmsil edən nümayəndələr təqdim olunub. Dünya Bankının Borcun İdarə edilməsi Ofisinin (DMF) meneceri və baş təhlilçisi Li Hakim "Dövlət borcu monitorinqinin və hesabatlılığının gücləndirilməsi: DMF-dən öyrənilmiş dərslər", BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) nümayəndəsi Stefani Blankenburq "Dayanıqlı inkişaf üçün borc şəffaflığı təşəbbüsləri və effektiv makroekonomik borc strategiyaları" mövzusunda məruzələr ediblər.

Mayın 25-dək davam edəcək toplantıda Dövlət Borcu üzrə İşçi Qrupunun Katibliyinin hesabatlarının, 2020-2022-ci illər üçün İşçi Qrupunun iş planının, 2018-ci ilin oktyabr ayında keçirilmiş sorğu nəticələrinin xülasəsinin, Dövlət Borcu Auditinin məlumat bazası üzrə ekspertlər şəbəkəsinin çıxışları, iş planındakı tədbirlər üzrə tapşırıq qruplarının tərkibinin müəyyən edilməsi, 2017-2019-cu illər üzrə iş planı və veb-səhifəsinin müzakirəsinin dinlənilməsi nəzərdə tutulur.

Toplantının ikinci günü INTOSAI-ın İnkişaf Təşəbbüsünün (IDI) direktor müavini Arçana Şirsat "Dövlət borcu auditinin ISSAI 100-ə uyğun olaraq konsolidasiyası və uyğunlaşdırılması; INTOSAI-ın İnkişaf Təşəbbüsünün qlobal ictimai töhfələrinin keyfiyyətinə nəzarət üzrə protokol; INTOSAI-ın Peşəkar Bəyanatlar çərçivəsi ilə bağlı müvafiq prosedurlar və INTOSAI-ın Bilik Mübadiləsi Komitəsinin (BMK) İşçi Qrupunun layihələri üzrə protokol"u təqdim ediləcək.

Hindistan Ali Audit Qurumunun nümayəndəsi Caysankar Dhandapani "BMK-IDI ictimai portal ilə bağlı yeni işlər: Bilik mübadiləsinin daha səmərəli platforma üçün INTOSAI ictimai portalın təkmilləşdirilməsi", Rusiya Ali Audit Qurumunun nümayəndəsi Tatyana Otroxova "Rusiya Federasiyasının dövlət borcunun strateji auditi", Gürcüstan Ali Audit Qurumunun nümayəndəsi Ana Mazmişvili "Maliyyə (Dövlət borcu) dayanıqlılığının qiymətləndirilməsində AAQ-ların rolu", Çin Ali Audit Qurumunun nümayəndəsi Vanq Banqvu "Milli dövlət borcunun auditində məlumat təhlilinin tətbiqi - Çinin yeni inkişafı", ABŞ Ali Audit Qurumunun nümayəndəsi Doun Simpson "Amerika Birləşmiş Ştatlarının maliyyə möhkəmliyi", Maldiv Ali Audit Qurumunun nümayəndələri Hüseyn Niyazi və Məqbul Xalid "Dövlət borcu dayanıqlılığına auditor yanaşması", Küveyt Ali Audit Qurumunun nümayəndələri Salma Əl-Essa Al-Qenae və Rim Həmid Əlsayif "Küveytdə dövlət borcunun INTOSAI standartları əsasında həyata keçirilməsində Dövlət Audit Bürosunun rolu", İordaniya Ali Audit Qurumunun nümayəndəsi Bilal Camal Əhməd Akaşeh "İordaniyada daxili borc xarici borca qarşı", Tailand Ali Audit Qurumunun nümayəndələri Pitikun Nilthanom və Orapan Limriantonq "Dövlət fiskal və maliyyə nizamnaməsi 2018: Dövlət borcunun idarəedilməsində Tailand AAQ-ın rolu" mövzularında çıxış edəcəklər.

2020-2022-ci illər üzrə Dövlət Borcu üzrə İşçi Qrupunun iş planından irəli gələn tədbirlər üzrə Misir və Hindistan ali audit qurumlarına, eləcə də Şimali Makedoniya və Litva ali audit qurumlarına tapşırıqlar müəyyən ediləcək, Dövlət Borcu üzrə İşçi Qrupunun Katibliyinin 2020-2022-ci illər üzrə DBİQ-in iş planının layihəsi müzakirə olunaraq təsdiq ediləcək, İşçi Qrupunun sədrinin DBİQ-in 2020-ci il və 2021-ci ildəki tədbirini keçirəcək ali audit qurumları müəyyənləşdiriləcək.

Toplantının sonunda Dövlət Borcu üzrə İşçi Qrupun sədrinin və Azərbaycan Respublikası Ali Audit Qurumu Təşkilat Komitəsinin yekun qeydləri və işgüzar inzibati bəyanatları dinləniləcək. Həmçinin "Dövlət Borcunun idarə edilməsinin auditi", "Dövlət Borcunun İdarə edilməsi: Düzgün işlər və ya işlərin düzgün şəkildə həyata keçirilməsi", "Dövlət borcu auditinin ISSAI 100-ə uyğun olaraq konsolidasiyası və uyğunlaşdırılması", "Rusiya Federasiyasının dövlət borcunun strateji auditi", "Milli dövlət borcunun auditində məlumat təhlilinin tətbiqi - Çinin yeni inkişafı", "ABŞ-ın maliyyə möhkəmliyi" və sair mövzularda təqdimatlar olacaq.

# YAP Yardımlı rayon təşkilatı Gənclər Birliyinin hesabat konfransı keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Yardımlı rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib. İştirakçılar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

YAP Yardımlı rayon təşkilatının sədri Mahir Mirzəyev çıxış edərək Yeni Azərbaycan Partiyasının təkcə Azərbaycanın deyil, regionun ən nəhəng, aparıcı siyasi təşkilatı olduğunu diqqətə çatdırıb. Dövlətin gənclərə qayğısından bəhs edən M.Mirzəyev Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin bu gün uğurla davam etdirildiyini bildirib: **"Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib, onların dövlət mənafeləri əsasında səfərbər olunması üçün mühüm addımlar atıb. Sevindirici haldır ki, əsası Ümummilli Liderimiz tərəfindən qoyulan dövlət gənclər siyasəti bu gün möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir".**

Sonra YAP Gənclər Birliyinin sədri Anar Alışovun hesabat məruzəsi dinlənilib. Məruzə ətrafında rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Əfsanə Mahmudzadə, təşkilat fəalları Ruslan Ataşlı və Şaiq Zaidli çıxış ediblər.

Konfransda Yardımlı rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov çıxış edərək bildirib ki, müstəqilliyimizin ilk illərində Azərbaycan gəncliyinin gündəlik həyatı və perspektivləri, taleyi çox böyük təhdidlərlə üz-üzə qalmışdı: **"Məhz Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra qısa müddətdə Azərbaycanın bütün potensialını bir araya gətirməsi mövcud problemlərin həllində xüsusi rol oynadı. Bütün işlər Azərbaycanın gələcəyi və gəncliyi üçün görülürdü. O dövr Azərbaycana siyasi, iqtisadi, hərbi sahələrdə qoyulan kapital gəncliyi qorumaq, inkişaf etdirmək, gənclərin ictimai həyata inteqrasiyasını sürətləndirməyə xidmət edirdi".**

Daha sonra çıxış edən YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə partiyanın yaradılmasının tarixi zərurət olduğunu bildirərək, ozamankı siyasi vəziyyətə diqqət yönəldib. Qeyd edib ki, müstəqilliyimizin ilk illərində xalqımızın düşdüyü son dərəcə çətin vəziyyətdə dövlətimizi və xalqımızı xilas edə biləcək böyük siyasi liderə ehtiyac var idi: **"Yaranmış belə bir ağır vəziyyətdə müstəqilliyimizi və dövlətçiliyimizi yalnız Heydər Əliyev kimi dahi bir şəxsiyyət qoruya bilərdi. Bu səbəbdən Ulu Öndər Heydər Əliyev xalqının səsinə səs verdi və yeni bir siyasi partiyanı - Yeni Azərbaycan Partiyasını yaratdı. Bu partiyanın təsis olunması, sonrakı illərdə xalqın yekdil səsi ilə hakimiyyətə gəlməsi nəticəsində Azərbaycan bölünmək təhlükəsindən xilas oldu, bugünkü inkişafın təməlləri qoyuldu. Sevindirici haldır ki, hazırda müasir müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir, yeni-yeni uğurlara imza atır".**

Daha sonra təşkilati məsələlərə baxılıb. YAP Yardımlı rayon təşkilatı Gənclər Birliyinin 21 nəfərdən ibarət Şura və 9 nəfərdən ibarət İdarə Heyətinin tərkibi müəyyənləşib. Eyni zamanda, səsvermə nəticəsində Əfsanə Mahmudzadə YAP Yardımlı rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib, həmçinin YAP Gənclər Birliyinin növbəti konfransına nümayəndələr də müəyyənləşdirilib.

# YAP Xızı rayon təşkilatının Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Xızı rayon təşkilatının Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfransda YAP Xızı rayon təşkilatının keçən müddət ərzində görüdüyü işlər və qarşıda duran məsələlər müzakirə edilib.

Konfransda YAP Xızı rayon təşkilatının sədri Fərrux Haqverdiyev çıxış edərək qarşıya qoyulan məqsədlər, eləcə də gənclərin partiyadakı rolu, ölkə rəhbərliyinin Azərbaycan gəncliyinə göstərdiyi davamlı diqqət və qayğısı barədə danışıb.

YAP Xızı rayon təşkilatının Gənclər Birliyinin üzvü İman Ağayev məruzə ilə çıxış edərək bildirib ki, partiyanın Xızı rayon təşkilatının gəncləri ötən müddət ərzində istər seçkilərdə, istərsə də digər əhəmiyyətli ictimai-siyasi tədbirlərdə uğurlu fəaliyyət göstərərək, öz davamlı töhfələrini veriblər.

Konfransda daha sonra çıxış edənlərdən Səidə Dadaşova, Elyanar Hüseynov və başqaları ölkəmizdə yürüdülən uğurlu gənclər siyasətindən danışaraq, əldə edən nailiyyətlərin hər birinin Azərbaycanın daha uğurlu gələcəyinə stimul verdiyini qeyd edib, ölkə gəncliyinin partiyanın Sədri, Prezident İlham Əliyevin ətrafında daha sıx birləşdiyini bildiriblər.

Məruzələrdən sonra təşkilati məsələlərə baxılıb. İman Ağayev YAP Xızı rayon təşkilatının Gənclər Birliyinin sədri seçilib.

Konfransda YAP Gənclər Birliyinin ümumrespublika konfransına nümayəndələri də seçilib.

Konfransda "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev çıxış edərək, gənclərin ictimai-siyasi həyatda rolu və qarşıda duran vəzifələr barədə bəhs edib.

# BMT-nin Əhali Fondu media nümayəndələri üçün seminar keçirib



Məlum olduğu kimi, 20-22 may tarixlərində BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycan nümayəndəliyinin dəstəyilə jurnalistlər, bloggerlər və vloggerlər üçün Şabranda "Gender əsaslı cins seçimi mövzusunun işıqlandırılması üzrə media işçilərinin bacarıqlarının artırılması" istiqamətində ikigünlük praktik seminar keçirilib.

Tədbir Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Mətbuat Şurasının tərəfdaşlığı və Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən "Oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması və qızların dəyərinin təbliği üzrə" qlobal proqram çərçivəsində təşkil olunub. Layihənin keçirilməsində məqsəd oğlan uşaqlarına üstünlük verilməsi probleminin və doğulan uşaqlar arasında gender əsaslı cins seçiminin aradan qaldırılması istiqamətində həyata keçirilən milli təşviqat kampaniyasına medianı cəlb etməkdir.

Seminarda gender ayrı-seçkiliyi, gender əsaslı zorakılıq və digər bu kimi mövzuları işıqlandıran media nümayəndələrinin doğulan uşaqların cins nisbətinin pozulmasının səbəb və nəticələri haqqında məlumatlılığının artırılması məsələsi müzakirə edilib. Bununla yanaşı, iştirakçılara ənənəvi və yeni media vasitələrinin, sosial media alətlərinin bu mövzudakı təşviqat işində istifadə olunması üçün praktik biliklər verilib.

Seminarın açılışında BMT-nin Əhali Fondunun demoqrafik inkişaf üzrə müşaviri Nərminə Məlikova doğulanların cins nisbətinin pozulması ilə bağlı Azərbaycanda və dünyada mövcud vəziyyətə dair çıxış edib.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti, Azərbaycan Mətbuat Şurasının sədr müavini Umud Mirzəyev çıxış edərək bildirib ki, bu problem bir çox inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da mövcuddur. Lakin ölkəmizdə tarix boyu qadınların cəmiyyətin həyatında çox vacib rolu olub. Bu gün də Azərbaycanda ölkə həyatının hər bir sahəsində qadınların fəallığının şahidi oluruq.

Daha sonra seminarın əsas təlimçisi Türkiyədən dəvət olunan media mütəxəssisi Ayşe Karabat Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin Əhali Fondu və Mətbuat Şurası tərəfindən hazırlanan "Gender jurnalistikası" adlı təlim kitabçasını təqdim edib.

Kitabça qadın hüquqları, gender bərabərliyi, gender zorakılığı və digər oxşar mövzularda yazan jurnalistlər üçün əyani vəsait rolunu oynayır.

Seminar zamanı Ayşe Karabatın təqdimatında qız övladları ilə bağlı gender diskriminasiyası, medianın bu məsələdə rolu, sosial mediada gender məsələsində bilərəkdən və ya bilməyərəkdən aparılan yanlış təbliğat və s. məsələlər ətrafında müzakirələr aparılıb.

**Müşfiqə BAYRAMLI**

# “İdmanın siyasi alətə çevrilməsi yolverilməzdir”

Bu günlərdə Azərbaycan növbəti mötəbər tədbirə ev sahibliyi edəcək. Dünya ictimaiyyətinin diqqəti UEFA Avropa Liqasının final mərhələsinin keçiriləcəyi Bakıya yönələcək. Bu, kifayət qədər nüfuzlu beynəlxalq futbol turniridir. Əvvəlki mötəbər tədbirlərdə olduğu kimi, UEFA Avropa Liqasının final mərhələsi ərəfəsində də Azərbaycana qarşı qərəzli münasibətin şahidi oluruq.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Milli Məclisin deputatı Şahin İsmayılov deyib.

Şahin İsmayılov bildirib ki, bu işlərdə həmişə “baş rol oyunçusu” kimi tanıdığımız, korrupsiyalaşmış və ümumiyyətlə, aidiyyəti oldu-olmadı Azərbaycana qarşı daim aqressiv münasibət göstərən, sifarişlə çalışan “Amnesty International”ın da bəyanatının şahidi olduq: **“Belə qurumlar hər zaman Azərbaycana qarşı bu cür əsassız bəyanatlar verərək qarayaxma kampaniyasını həyata keçirirlər. İdmanın siyasətlə qarışdırılması yolverilməzdir. İdman dünyada sülhə,**



**əmin-amanlığa, xalqlar, millətlər arasında dostluğa xidmət edir. Amma, əfsuslar olsun ki, biz Azərbaycanda keçiriləcək bu yarış ərəfəsində də idmanın siyasi alətə çevrildiyinin şahidi oluruq. Bu, yolverilməzdir”.**

Deputat bildirib ki, Azərbaycan hər zaman mötəbər tədbirlərə, idman yarışlarına ev sahibliyi edir: **“Bakı şəhəri dünyanın idman paytaxtlarından biridir. Hər il biz bu və ya digər səviyyədə idman tədbirlərinin Azərbaycanda keçirilməsinin şahidi oluruq. Kifayət qədər uğurlu nəticələrimiz var. Lakin biz hər mötəbər yarış ərəfəsində çirkin kampaniyalarla üzləşirik. Bunu “Avroviziya”, birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları zamanı da gördük. İndiyə qədər keçirilən yarışlarda ermənilər də iştirak ediblər və onların təhlükəsizliyi ilə bağlı hər hansı bir problem olmayıb”.**

Deputat vurğulayıb ki, “Amnesty International”ın verdiyi bəyanatlar ciddi qəbul edilməməlidir. Əminliklə demək olar ki, bu təşkilatın bəyanatları əvvəlcədən hazırlanır.

Ş.İsmayılov qeyd edib ki, Prezident İlham Əliyevin uğurlu siyasəti, möhkəm iradəsi, ölkəmizdəki xalq-iqtidar birliyi nəticəsində Azərbaycan bundan sonra daha da inkişaf edəcək, güclənəcək. Ölkəmizə qarşı aparılan qarayaxma kampaniyaları həmişə olduğu kimi, bu dəfə də uğursuzluğa məhkumdur.

# “Tarixçi-alimlərimiz” layihəsi çərçivəsində Bakı Dövlət Universitetində professor İradə Hüseynova ilə görüş keçirilib







Mayın 22-də Bakı Dövlət Universitetində BDU-nun və Tarix fakültəsinin 100 illik yubileyinə həsr olunan “Tarixçi-alimlərimiz” layihəsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, YAP-ın Humanitar məsələlər üzrə komissiyasının sədr müavini, partiyanın Qadınlar Şurasının İdarə Heyətinin üzvü, BDU-nun Qafqaz xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor İradə Hüseynova ilə görüş keçirilib. İ.Hüseynovanın həyat yoluna, elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətinə həsr olunmuş görüşdə Tarix fakültəsinin müəllim və tələbə heyəti, eyni zamanda, həmin fakültəni bitirən tanınmış elm xadimləri və siyasətçilər iştirak ediblər. Tədbiri açıq elan edən BDU-nun Tarix fakültəsinin dekan əvəzi, professor İbrahim Zeynalov professor İradə Hüseynovanın Azərbaycan elminə, xüsusilə tarix elminə verdiyi töhfələrdən, onun ictimai-siyasi fəaliyyətindən, elmi yaradıcılığından bəhs edib.

Qeyd edilib ki, Azərbaycanın Əməkdar müəllimi, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının, Rusiya Federasiyası Pedaqoji Akademiyasının, Beynəlxalq Kadr Akademiyasının həqiqi üzvü, elm, təhsil və innovasiyaların inkişafında xidmətlərinə görə (Oksford, Böyük Britaniya) Beynəlxalq “Sokrat” mükafatı və Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Qızıl Ulduz mükafatının laureatı İradə Hüseynova bu yaxınlarda BMT-nin Təltiflər Şurası (İsveçrə, Cenevrə) tərəfindən dünya elminə və təhsilinə göstərdiyi xidmətlərə görə BMT-nin “Elm və sülh səfiri” beynəlxalq tituluna və mükafatına, həmçinin “Avropa Xidmət Ordeni”nə layiq görülüb.

Xüsusi olaraq vurğulanıb ki, tarixçi-alim İradə Hüseynova Ümummilli Lider Heydər Əliyev haqqında “Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu” adlı doktorluq dissertasiyasının müəllifidir.

O da qeyd olunub ki, tarix elmləri doktoru, professor İradə Hüseynovanın gənc kadrların hazırlanmasında böyük xidmətləri olub. Professor İradə Hüseynovanın elmi rəhbərliyi ilə bir çox gənc alim elmi-tədqiqat işləri aparıb, fəlsəfə doktoru və elmlər doktoru adını almaq üçün dissertasiyalar müdafiə edib.

Eyni zamanda, xatırladılıb ki, professor İ.Hüseynova Azərbaycan elmini və



təhsilini ABŞ, İtaliya, Fransa, Kanada, İsveç, İsveçrə, Danimarka, Avstriya, Rumıniya, Bolqarıstan, Rusiya, Türkiyə, Gürcüstan, Türkmənistan, Belarus, İsrail, Şri-Lanka və s. ölkələrdə keçirilmiş bir çox beynəlxalq elmi simpozium və konfranslarda uğurla təmsil edib, onun məruzələri nüfuzlu elmi dərgilərdə dərc olunub. Alimin fəaliyyət dairəsi kifayət qədər geniş və çoxşaxəlidir. Belə ki, o, bir neçə dəfə gender problemləri ilə bağlı ABŞ-ın Nyu-York şəhərində Azərbaycan nümayəndə heyətinin tərkibində iştirak edib, BMT-nin kürsüsündən qadın və kişilərin hüquqları, cəmiyyətdə yeri və rolu, təhsil sistemində gender problemləri ilə bağlı çıxışlar edib.

Sonra söz professor İradə Hüseynovaya verilib. İ.Hüseynova görüş iştirakçılarına keşməkeşli və qürurlu həyat yolu haqqında ətraflı məlumat verib. İ.Hüseynova əvvəlcə qeyd edib ki, BDU ilk növbədə onun üçün doğma təhsil ocağıdır, çünki 17 yaşından başlayaraq həyatının mühüm dövrləri bu ali təhsil müəssisəsi ilə bağlı olub. 1980-ci ildə Bakının 8 saylı orta məktəbini əla qiymətlərlə bitirdiyini qeyd edən İ.Hüseynova Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin əyani şöbəsinə daxil olmasını həyatının ən mühüm məqamlarından biri hesab edir. Çünki onun tarix elminə olan hədsiz marağı sonradan ictimai-siyasi və elmi fəaliyyətinə də böyük təkan verib. Belə ki, universitetdə yüksək fəallığı ilə seçilən İ.Hüseynova Tarix fakültəsinin əyani şöbəsinin hələ II kursunda oxuyarkən universitetin həmkarlar təşkilatının sədr müavini vəzifəsinə seçilib: **“1985-ci ildə Azərbaycan Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirmişəm. Universitetdə oxuduğum müddət ərzində elmi cəmiyyətin fəaliyyətində, respublika və İttifaq səviyyəli ictimai-siyasi işlərdə fəal iştirak etmişəm”.**

Ulu Öndər Heydər Əliyevlə ilk görüşünü xatırlayan İ.Hüseynova bildirib ki, ali təhsil aldığı dönəmdə tələbə briqadaları tərkibində pambıq yığımına cəlb olunan zaman onun rəhbəri olduğu tələbə manqası respublika üzrə birincilik qazanıb. Bundan sonra Azərbaycan KP MK-dan universitetə məktub göndərilib ki, o, hazırda Ümummilli Lider Heydər Əliyevin adını daşıyan sarayda çıxış etməlidir. İ.Hüseynova bildirib ki, əvvəlcə çox həyəcan keçirsə də, sonradan belə bir məsuliyyətli işin öhdəsindən şərəflə gəlib. İ.Hüseynova həmin iclasda Ulu Öndər Heydər Əliyevin də iştirak edib.

Daha sonra İ.Hüseynova Ulu Öndər Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası təhsil nazirinin müavini təyin edilməsindən və düz 10 il təhsil nazirinin müavini vəzifəsində çalışmasından bəhs edib.

Əldə edilən hər bir nailiyyətdən sonsuz qürur hissi keçirdiyini vurğulayan İ.Hüseynova daha sonra Azərbaycan Respublikasının müstəqil inkişaf dövründən bəhs edərək Ulu Öndər Heydər Əliyevin layiqli varisi, Azərbaycan Prezidenti İlham Əliyevin, Onun xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycan xalqının rifahı, dövlətimizin qüdrətlənməsi istiqamətində ardıcıl, dinamik fəaliyyət göstərdiklərini qeyd edib. O, xüsusi olaraq vurğulayıb ki, bu gün Vətənini, dövlətini sevən hər bir azərbaycanlı ölkə Prezidentinin yanındadır və Onun ətrafında sıx birləşib.

Tədbirdə çıxış edən tanınmış elm, habelə ictimai və siyasi xadimlər, tələbə və müəllimlər professor İradə Hüseynovanın elmi yaradıcılığının tarixi tədqiqatların genişləndirilməsinə, o cümlədən Qafqaz xalqlarının tanıdılmasına verdiyi töhfələrdən bəhs edib, onun elm və təhsilimizin inkişafında xidmətlərinə toxunublar.

Sonda professor İ.Hüseynovanın bədii yaradıcılığından bəhs edən videoçarx nümayiş etdirilib, elmi əsərləri görüş iştirakçılarına təqdim edilib.

**Qaşqay ZİYƏDDİNOĞLU**

# Avropa Liqasının Bakıda keçiriləcək final oyunu ən yüksək səviyyədə baş tutacaq

*Bəzi qərəzli dairələrin müxtəlif bəhanələrlə bu oyunun keçirilməsinə əngəl olmaq cəhdləri heç bir nəticə verməyəcək*

Azərbaycanın paytaxtı Bakı növbəti dəfə böyük idman bayramına hazırlaşır. Xəbər verildiyi kimi, mayın 29-da Bakı Olimpiya Stadionunda Avropa Liqasının final oyunu keçiriləcək. Qarşılaşmada iki ingilis klubu - “Arsenal” və “Çelsi” üz-üzə gələcək.

Bəri başdan vurğulayaq ki, şəhərimizdə bundan əvvəl Azərbaycanın ev sahibliyi etdiyi bütün mötəbər beynəlxalq yarışlarda - Birinci Avropa, IV İslam Həmrəyliyi oyunlarında, “Formula - 1” Qran-Prisində və digər yarışlarda olduğu kimi, Avropa Liqasının final görüşünə də çox ciddi hazırlıq görülüb. Belə ki, Bakıda dünyanın böyük maraqla izləyəcəyi “Arsenal” - “Çelsi” derbisinin əsl idman bayramına çevrilməsi və tam təhlükəsizlik şəraitində keçirilməsi üçün bütün lazımi tədbirlər həyata keçirilib. Necə deyərlər, şəhərimiz, bakılılar komandaları, fanatları ürəkgenişliyi ilə qarşılamaq, futbol azarkeşlərinə unudulmaz final sevincini yaşatmaq əzmindədir.

Bununla belə, Azərbaycanın uğurlarını həzm edə bilməyən, ölkəmizin beynəlxalq səviyyədə müsbət imicinin getdikcə daha da möhkəmlənməsinə qısqanclıqla yanaşan xaricdəki bəzi antimilli dairələr və onlarla koordinasiya olunmuş şəkildə fəaliyyət göstərərək aldıqları hər sifarişi can-başla yerinə yetirməyə çalışan radikal müxalifət düşərgəsinin təmsilçiləri hətta Avropa Liqasının final qarşılaşmasını da manipulyasiya predmetinə çevirməkdən çəkinməyiblər. Bəhs olunan dairələr 2012-ci ildə “Eurovision” mahnı müsabiqəsi, 2015-ci ildə Birinci Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları və Bakının ev sahibliyi etdiyi digər belə mötəbər tədbirlər ərəfəsində dövriyyəyə buraxdıqları Azərbaycana qarşı “qara piar” ssenarisini bu dəfə Avropa Liqasının final oyununa sayılı günlər qaldığı bir vaxtda gündəmə gətiriblər. Heç bir əsası olmayan təxribat xarakterli iddiaların spektri isə hədsiz dərəcədə genişdir. İndiyədək səsləndirilən bəhanələr sırasında təhlükəsizliklə, ələlxüsus da “Arsenal”ın erməni əsilli futbolçusu Henrix Mxitaryanın təhlükəsizliyinin təmin olunması ilə bağlı iddialar xüsusi yer tuturdu. Azərbaycan tərəfi bununla bağlı birmənalı mövqe ortaya qoyaraq bildirdi ki, Bakıya gələcək bütün heyətlərin, o cümlədən də Henrix Mxitaryanın təhlükəsizliyinə tam təminat verilir. Sonuncunun və onun ailəsinin Bakıya gəlməkdən imtina etməsi isə məsələnin tamam başqa tərəfidir. Xatırlatmaq yerinə düşər ki, indiyədək Bakıda keçirilən beynəlxalq yarışlara qatılan erməni əsilli idmançıların təhlükəsizliyi ilə bağlı hər hansı bir problem yaşanmayıb.




Bu günlərdə isə bəzi dairələr “Arsenal” və “Çelsi” komandalarının ümumilikdə biletləri geri qaytaracaqları ilə bağlı xəbərlər dövriyyəyə buraxıb. Yerli portalların “The Times” nəşrinə istinadən yaydıqları xəbərdə bildirilir ki, “Arsenal” və “Çelsi” ümumilikdə 6000-dən çox bileti geri qaytaracaqlar, çünki komandalar müvafiq olaraq 3500 və 2000 bilet sata biliblər.

Qeyd edək ki, UEFA ümumilikdə klubların hər birinə 5800 bilet ayırıb ki, bu da finalın keçiriləcəyi stadionda yer tutumunun 10 faizini təşkil edir.

“Çelsi” və “Arsenal” klublarının satılmayan biletləri UEFA-ya qaytarmaları barədə yayılan xəbərlər bununla bağlı iddialara cavab vermək məcburiyyəti yaradır. Əvvəla, finalın Bakıda keçirilməsi qərarını UEFA verib. Əlbəttə, UEFA-nın bu qərarı heç də təsadüfi xarakter daşımır. Azərbaycan final qarşılaşmasının Bakıda keçirilməsi ilə bağlı müraciət edib və daha sərfəli təkliflər irəli sürdüyünə, digər namizədlərlə müqayisədə yarışın keçirilməsi üçün daha əlverişli şərait yaradacağına təminatlar verdiyinə görə seçilib. O başqa məsələdir ki, 2017-ci ildə heç kəs finalda iki ingilis komandasının üz-üzə gələcəyini ehtimal etmirdi. Finala Azərbaycana daha yaxın ölkələrin klubları da çıxa bilərdi.

Sözügedən xəbərlərdə belə bir iddia da yer alır ki, guya Bakıda hava limanının ötürücülük imkanları aşağıdır. Bəri başdan deyək ki, bu iddianın da heç bir əsası yoxdur. Çünki Heydər Əliyev Beynəlxalq Aeroportu hər gün minlərlə sərnişin qəbul edir və bu zaman heç bir problem yaşanmır.

Ümumiyyətlə, azarkeşlərin belə oyunların keçirildiyi ölkələrə getməsində həmişə müəyyən çətinliklər yaşanıb. Ancaq bu amil heç vaxt final qarşılaşmasının hansı ölkədə keçirilməsi ilə bağlı qərarın düzgün verilib-verilməməsi ətrafında indiki kimi ajiotaja səbəb olmayıb. Azarkeşlər yolun uzaqlığı, biletlərin qiymətinin baha olması və bu kimi digər çətinliklərə məhəl qoymadan sevdikləri komandanın oyununu tribunalardan izləmək və tarixi anlara şahid olmaq xoşbəxtliyini yaşamaq şansını heç vaxt əldən verməyiblər. Azərbaycan paytaxtında keçiriləcək final oyununa gəldikdə isə azarkeşlərin Bakıya gəlmələrini əngəlləməkdən ötrü hansısa ehtimal edilən təxribatlardan, ölkədəki qeyri-sabitlikdən, hava limanının imkanlarının guya məhdud olmasından və digər belə bəhanələrdən danışılır.

Ancaq yuxarıda bildirdiyimiz kimi, Azərbaycan ictimaiyyəti artıq belə bəhanələrlə ölkədə keçirilən mühüm tədbirləri gözdən salmaq cəhdlərinə alışıb və bu kimi iddiaları ciddi qəbul etmir. Yeri gəlmişkən, mayın 29-da Bakının Olimpiya Stadionunda keçiriləcək matç ilə bağlı müəyyən dairələrin məqsədli şəkildə dövriyyəyə buraxdıqları iddialar, əsassız söz-söhbətlər, vəziyyəti gərginləşdirmək cəhdləri beynəlxalq səviyyədə də birmənalı qarşılanmır. Məsələn, “Arsenal”ın ulduz futbolçusu Məsud Özil sosial şəbəkələrdə yaydığı hesabında Azərbaycan paytaxtına gəlməkdən məmnunluğunu ifadə edib. Böyük Britaniyanın “Metro” və “Evening Standard” nəşrlərinin redaktoru Custin Palmer həlledici qarşılaşmanın Bakıya salınması üçün narazılığına görə “topçular”ı tənqid edib. Belə nümunələrin sayı kifayət qədər çoxdur.

Deyilənlər bir daha təsdiqləyir ki, Bakının ev sahibliyi edəcəyi final qarşılaşması ilə bağlı qeyri-obyektiv, qərəzli iddiaların heç bir əsası yoxdur. Məqsədli şəkildə irəli sürülən bütün iddialara, kimlərinsə narazılıq və narahatlıq yaratmaq, müxtəlif bəhanələrlə Bakıda möhtəşəm oyunun keçirilməsinə əngəl olmaq cəhdlərinə baxmayaraq, dünyanın diqqət mərkəzində olan futbol bayramı ən yüksək səviyyədə baş tutacaq və milyonlarla futbol azarkeşi bundan zövq alacaq.

**Mübariz ABDULLAYEV**

# “Amnesty İnternational” təşkilatı müstəqil siyasət yürüdən ölkələrə qarşı təzyiq vasitəsidir

*Mənfi imicə - çirkli reputasiyaya malik olan belə bir təşkilatın kimisə ittiham etməyə, ədalət, şəffaflıq və demokratiyadan danışmağa haqqı yoxdur*

AMNESTY INTERNATIONAL

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan güclü, nüfuzlu ölkə kimi tanınır. Şübhəsiz ki, ölkəmizin dinamik tərəqqisinin və sarsılmaz ictimai-siyasi sabitliyin əsasında müvəffəqiyyətlə həyata keçirilən praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq edilməsi və hədəflənən nəticələrin əldə olunması, sosial-iqtisadi və institusional islahatların uğurla həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi və digər nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir.

O da qeyd edilməlidir ki, Azərbaycanın beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi qlobal xarakterli nüfuzlu tədbirlərə - mədəniyyət müsabiqələrinə, humanitar forumlara, idman yarışlarına uğurla ev sahibliyi etməsi də olduqca yüksək qiymətləndirilir. Əlbəttə, nüfuzlu beynəlxalq tədbirlərin, eləcə də idman yarışlarının keçirildiyi məkan olaraq Azərbaycanın seçilməsinin əsasında dayanan amillər sırasında ölkəmizin iqtisadi inkişafı, müasir infrastruktura malik, ən əsası, təhlükəsizliyin təmin olunduğu sabit ölkə olması xüsusi yer tutur.

Bu məqamda vurğulamaq yerinə düşər ki, mayın 29-da paytaxt Bakı daha bir möhtəşəm tədbirə ev sahibliyi edəcək. Bəlli olduğu kimi, Bakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının final oyunu baş tutacaq. Yəni dünyanın nəzəri yenidən regionun iqtisadi, siyasi və humanitar mərkəzi olan Azərbaycanın paytaxtı Bakıdadır. Lakin təəssüflər olsun ki, bəzi qərəzli dairələr bu nüfuzlu idman hadisəsinin üzərinə kölgə salmaq, Azərbaycanın müsbət beynəlxalq imicinə xələl gətirmək üçün “qara piar” kampaniyası aparır, reallıqlara uyğun olmayan məlumatlar yaymaqla dezinformasiya siyasəti həyata keçirirlər. Bu kontekstdə müxtəlif informasiya resurslarının və təşkilatların xidmətlərindən də aktiv istifadə edilir. “Amnesty İnternational” təşkilatının Azərbaycanda Avropa Liqasının finalının keçirilməsini pisləməsi də bu qəbildən olan nümunələrdəndir.

Şübhəsiz ki, “Amnesty İnternational” təşkilatının bu “yanaşma”sı anti-Azərbaycan dairələrin konkret direktivləri əsasında formalaşıb və məqsəd beynəlxalq ictimai rəyi manipulyasiyaya məruz qoymaq, Azərbaycanın müsbət reallıqlarını təhrif etməkdir. Sözügedən təşkilatın Azərbaycanda Avropa Liqasının finalının keçirilməsini pisləməsi və bunu ölkəmizdə insan hüquqlarının durumu ilə əlaqələndirməsi qərəzli, qeyri-obyektiv yanaşmadan başqa bir şey deyil. Çünki hər kəsə bəllidir ki, Azərbaycan bütün azadlıqların təmin edildiyi müasir, demokratik ölkədir. İnkişafın milli modelini formalaşdıran Azərbaycanda iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılır və bir-birini tamamlayır. Azad, demokratik cəmiyyət quruculuğuna nail olunması ölkəmizin müstəqillik illərində əldə etdiyi ən mühüm uğurlardan biri kimi dəyərləndirilir. Bütün azadlıqların təmin olunması isə Azərbaycan cəmiyyətinin üstün cəhətidir. Bütövlükdə isə, demokratik dəyərlər və təsisatların təşəkkül tapdığı müasir hüquqi dövlət olan Azərbaycanda daxili siyasət kursunun mühüm istiqamətlərindən birini insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi təşkil edir.

“Amnesty İnternational” təşkilatının fəaliyyətinə gəldikdə isə bu təşkilatın mənfi imicə malik olması sirr deyil. Bəhs olunan təşkilat korrupsiyada adı hallanan, sifariş yerinə yetirən qurum imici qazanıb, ayrı-ayrı maraqlı xarici qüvvələrin əlində müstəqil siyasət yürüdən ölkələrə qarşı təzyiq vasitəsi funksiyasını yerinə yetirir. Təbii ki, belə mənfi imicə - çirkli reputasiyaya malik bir təşkilatın kimisə ittiham etməyə, ədalət, şəffaflıq və demokratiyadan danışmağa haqqı yoxdur.

**Nurlan QƏLƏNDƏRLİ**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Regionlarda əhalinin kommunal xidmətlərlə təchizatının daha da yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır

*İndiyədək görülən işlərin nəticəsidir ki, ölkə üzrə qazlaşdırmanın səviyyəsi 95,7 faizə yüksəlib, həmçinin ən ucqar yaşayış məntəqələrində də abonentlər dayanıqlı elektrik enerjisi ilə təmin olunurlar*



Azərbaycanda təbii qaza olan daxili tələbatın tam ödənilməsi, o cümlədən respublikanın yaşayış məntəqələrinə təbii qazın verilməsinin bərpası, istehlakçıların qazla təchizatının yaxşılaşdırılması, qaz kəmərlərinin və avadanlıqların yenidən qurulması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. Bununla yanaşı, texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ enerji mənbələri ilə təminatı istiqamətində tədbirlər görülür. Həmçinin əvvəllər daxili tələbatı ödəyə bilməyən Azərbaycan indi xarici ölkələrə elektrik enerjisi satır və hazırda elektrik enerjisinin ixracının həcmi də artıb. Belə ki, yanvar-aprel aylarında ölkədən 1 milyard 48 milyon 890 min kilovat/saat elektrik enerjisi ixrac olunub.

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində Prezident İlham Əliyev əhalinin qazla təminatının Azərbaycanda ən yüksək səviyyədə olduğunu vurğulayıb: **“Biz imkanlardan maksimum istifadə etməliyik ki, bu gün hələ də qaz almayan qəsəbələrə, kəndlərə qaz xətləri çəkək. Şəhərlərdə bəzi yerlərdə qazın təzyiqi aşağıdır və bu məsələ ilə bağlı müvafiq göstərişlər verildi, işlər görülür ki, əhaliyə keyfiyyətli qaz verilsin”.**

Dövlət başçısının verdiyi tapşırıqların icrası istiqamətində görüləcək işlərlə bağlı mayın 3-də “Azəriqaz” İstehsalat Birliyində (İB) geniş müşavirə keçirilib. “Azəriqaz” İB-nin baş direktoru Əkbər Hacıyev müşavirədə qeyd edib ki, ölkə başçısının apardığı uğurlu islahatlar və qazlaşdırmaya göstərdiyi böyük diqqət və qayğının nəticəsində 2009-2019-cu illər ərzində 2349 qəsəbə və kənddə qazlaşdırma işləri tam başa çatdırılıb. Həyata keçirilmiş qazlaşdırma işləri nəticəsində ölkə üzrə qazlaşma səviyyəsi hazırda 95,7 faizə çatdırılıb. Ə. Hacıyev bildirib ki, ölkə başçısının haqlı iradlarının aradan qaldırılması istiqamətində işlər aparılmaqdadır: **“Dövlətimizin başçısının qaldırdığı bütün məsələlər qurum tərəfindən təhlil edilir və tədbirlər həyata keçirilir. Hazırda “Azəriqaz” İB-də qeyd olunan çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər proqramı işlənilir”.**

Qeyd olunub ki, bununla əlaqədar qaz təchizatı üzrə abonentlərdən daxil olan müraciətlərin obyektiv araşdırılması və operativ həlli ilə bağlı “Azəriqaz” İstehsalat Birliyi və Enerji Məsələlərini Tənzimləmə Agentliyinin nümayəndələrindən ibarət İşçi Qrupu yaradılıb. Bildirilib ki, tərtib edilmiş tədbirlər proqramına uyğun olaraq, “Azəriqaz” tərəfindən nəzərdə tutulmuş işlərin icrası ilə əlaqədar, ilk növbədə, kənd və qəsəbələrin daşıyıcı qaz kəmərlərinin yenidən qurulması, kəmərlər üzərində quraşdırılmış istismar müddəti bitmiş avadanlıqların yeniləri ilə əvəz edilməsi, sonrakı mərhələdə isə mövcud qaz paylayıcı şəbəkələrin, küçə və dalanların qaz xətlərinin yenidən qurulması, eləcə də hər bir istehlakçının mənzilinə qaz sayğaclarının quraşdırılması işləri davam etdirilir.

Hazırda regionlarda yaşayış məntəqələrinin qazlaşdırılması prosesi sürətlə davam edir. “Azəriqaz” İB tərəfindən Quba rayonunun Hacıhüseynli və Əliməmmədoba kəndlərinin qazlaşdırılmasına başlanılıb. İki kənddə ümumilikdə 727 abonent yüksəktəzyiqli təbii qazla təmin olunacaq. Kəndlərin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 46 min metrə yaxın olan müxtəlif diametrli polad və polietilen borularla daşıyıcı, məhəllədaxili qaz xətləri çəkiləcək. Bununla yanaşı, bütün abonentlər üçün qaz sayğacı və fərdi tənzimləyici quraşdırılacaq. Qazlaşdırma işlərinin iyul ayında başa çatdırılması nəzərdə tutulub.

Bu il Quba rayonunun daha 9 yaşayış məntəqəsinin də təbii qazla təminatı planlaşdırılır. Rayonda il ərzində qazlaşdırılacaq yaşayış məntəqələrində ümumilikdə 1715 abonent qeydə alınıb.

Xaçmaz Regional Qaz İstismarı İdarəsindən bildirilib ki, il ərzində Xaçmazın Aşağı Ləgər, Digahoba kəndləri, eləcə də Qusar şəhərinin yeni salınan yaşayış massivinin də təbii qazla təmin olunması nəzərdə tutulub. “Azəriqaz” İB tərəfindən ölkə başçısının tapşırığına uyğun olaraq, kənd və qəsəbələrin qazlaşdırılması məqsədilə hazırlanmış qazlaşdırma proqramı üzrə genişmiqyaslı tikinti-quraşdırma və təmir-bərpa işləri həyata keçirilir, yaşayış massivlərinin qazlaşdırılması, qaz infrastrukturunun yenidən qurulması və inkişaf etdirilməsi üçün intensiv işlər görülür. Belə ki, istehlakçıların mənzillərində istismar müddəti başa çatmış məişət qaz sayğacları yenisi ilə əvəz olunur, yeni qaz kəmərləri çəkilir və istismara yararsız vəziyyətdə olan qaz avadanlıqları yeniləri ilə əvəz edilir. İstehlakçıların qaz təchizatının yaxşılaşdırılması, şəbəkənin qaz nəqletmə imkanlarının artırılması və yaşayış məntəqələrinin qazlaşdırılması üçün birlik tərəfindən bu ilin yanvar-aprel ayları ərzində 281,9 kilometr yeni qaz kəməri çəkilib, qaz kəmərləri şəbəkəsinin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün isə 185,7 kilometr qaz kəməri əsaslı təmir olunub.

Hazırda Ağdaş rayonunun Yenicə kəndində də qazlaşdırılma işləri aparılır. Kəndin qazlaşdırılması üçün birpilləli sistem əsasında ümumi uzunluğu 25 min 600 metr müxtəlif diametrli polad və polietilen borularla daşıyıcı, eləcə də paylayıcı qaz xətlərinin çəkilişi davam etdirilir. Kəndə təbii qazın verilməsi ilə 380-dən çox fərdi ev “mavi yanacaq”la təmin olunacaq. İşlərin qısa zamanda yekunlaşdırılması nəzərdə tutulub. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında birpilləli tənzimləmə sistemi tətbiq edilir ki, bu da hər bir abonentin fərdi qaztənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradacaq.

Daşkəsən rayonunun Quşçu, Quşçu körpü kəndlərində və Daşkəsən qəsəbəsində yeni qazlaşdırma işlərinin aparılması üçün layihə sənədləri hazırlanıb. Bu ay həmin yaşayış məntəqələrinin qazlaşdırılması işlərinə başlanacaq. Qeyd edək ki, bu ilin ilk rübü ərzində rayonun Quşçu kəndində 368, Bayan kəndində isə 395 abonent təbii qazla təmin olunub.

Azərbaycanda əhalinin etibarlı şəkildə elektrik enerjisi ilə təmin edilməsinə gəlincə, Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib: **“Elektrik enerjisi ilə bağlı qoyulan investisiyalar bizə nəinki özümüzü təmin etməyə, ixrac da etməyə imkan verdi. Vaxt var idi ölkəmizi qaranlıq bürümüşdü. Vaxt var idi gecə saat 12-də televizor da söndürülürdü ki, elektrik enerjisinə sərfiyyat azalsın. Biz xaricdən elektrik enerjisini alırdıq və özümüzü güc-bəla ilə təmin edirdik. İndi biz xaricə elektrik enerjisi ixrac edirik”.**

Dövlət başçısı vurğulayıb ki, ilin sonuna qədər elektrik enerjisi ilə bağlı modernləşdirmə prosesi davam etdiriləcək: **“Mövcud stansiyaların potensialının gücləndirilməsi üçün işlər aparılır. Yenidənqurma, bərpa, modernləşmə işləri nəticəsində biz mövcud stansiyalarda ən azı 400-500 meqavat əlavə enerji gücü əldə edə bilərik. Artıq bütün hesablamalar var və əminəm ki, biz bu işdə uğur qazanacağıq. Beləliklə, hesab edirik ki, ancaq modernləşmə nəticəsində bir böyük yeni stansiya qurulacaq. Əgər biz “Şimal-2” stansiyasının tikintisini də əlavə etsək, - o da təqribən 400-500 meqavat gücünə malik stansiya olacaq, - bizim enerji potensialımız daha da artacaq və ölkəmizin artan sənaye potensialı, artan əhali, əlbəttə ki, gələcəkdə də etibarlı qaydada elektrik enerjisi ilə təmin ediləcək”.**

Dövlət başçısının bu yöndə müvafiq tapşırıqlarına uyğun olaraq hazırda “Cənub” Elektrik Stansiyasında sudurulducu hovuz və dövran nasosları təmir edilir ki, bu da su sızmasının qarşısını almaqla etibarlılığın artırılmasına xidmət edəcək. Yaxın günlərdə isə 110 kilovoltluq qapalı paylayıcı qurğuda bərpa işlərinə başlanılacaq.

Bununla yanaşı, hazırda “Cənub” Elektrik Stansiyasına Hacıqabul rayonunda yerləşən qazpaylayıcı stansiyadan 25 kilometr məsafədə yeni qaz xətti çəkilir. Yeni xətt çəkiləndən sonra qaz kompressorları sistemdən çıxarılacaq və onun işləməsinə sərf edilən aylıq 7 milyon kilovat/saat elektrik enerjisinə qənaət ediləcək. Buna paralel olaraq hazırda “Cənub” Elektrik Stansiyasından “Xırdalan” yarımstansiyasına 108 kilometr məsafədə 220 kilovoltluq yüksəkgərginlikli yeni elektrik veriliş xətti çəkilir və işlər yekunlaşmaq üzrədir.

Qeyd edək ki, “Azərişıq” ASC-nin ötən ilin payızından sonra “Reabilitasiya Proqramı” çərçivəsində “Cənub” Elektrik Stansiyasının qazanlarında, turbinlərində və başqa avadanlıqlarda həyata keçirdiyi təmir və sazlama işləri nəticəsində stansiyanın gücü 520 meqavatdan 720 meqavata qaldırılıb və bununla da 200 meqavat itirilmiş güc bərpa olunub.

Yeri gəlmişkən, “Azərişıq” qərb regionunda da yenidənqurma işlərini davam etdirir. Tovuz rayonunda elektrik enerjisinin verilişində keyfiyyət artırılır. Belə ki, istismar müddətini başa vurmuş elektrik şəbəkələri yenidən qurularaq texniki itkilərin səviyyəsinin minimuma endirilməsi, kənd təsərrüfatı, sənaye, turizm və digər iaşə obyektlərinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə cari ilin ötən aylarında qərb regionunda irimiqyaslı yenidənqurma işləri həyata keçirilib və hazırda davam etdirilir. Ötən aylarda görülən işlər sırasında 8 kilometr uzunluğunda olan 6 kilovoltluq “Aqropark” hava xətti də var. Tam tikilib istifadəyə verilən bu xətt vasitəsilə kənd təsərrüfatı məhsullarının istehsalı üçün münbit şərait yaradılıb.

Uzunluğu 5,74 kilometr olan “Ağdam” hava xəttində isə dayaqlar tam dəyişdirilib, 10 kilovoltluq dayaqlar quraşdırılıb. Rayonun Hunanlar kəndində 3 ədəd, Sarıtala və Qaraboyunlar kəndlərində isə 2 ədəd komplekt transformator məntəqəsi (KTM) quraşdırılıb, ötürücü dayaqlar dəyişdirilib və SİP kabelləşmə işi aparılıb. Rayonun bir çox qəsəbə və kəndlərində, o cümlədən cəbhəyanı kəndlərdə də hazırda yenidənqurma işləri davam etdirilir.

**Qaşqay RAMAZANOV**

# AZƏRTAC “China Daily” qəzetinin fəxri media tərəfdaşı mükafatına layiq görülüb



CHINADAILY
2019 Honorary International Media Partner
REWARD CERTIFICATE
PRESENTED TO
AZERBAIJAN STATE NEWS AGENCY
IN RECOGNITION OF VALUABLE CONTRIBUTIONS TO INTERNATIONAL MEDIA COMMUNICATION AND COOPERATION
CHINADAILY.COM.CN
BEIJING · 2019

Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC Çinin ingilis dilində nəşr olunan nüfuzlu gündəlik “China Daily” qəzetinin mükafatına layiq görülüb.




“China Daily” qəzeti ilə son bir ili əhatə edən sıx əməkdaşlığına, iki ölkə arasında informasiya mübadiləsindəki fəallığına, qəzetin həyata keçirdiyi layihələrdə fəal iştirakına görə AZƏRTAC-a “Fəxri beynəlxalq media tərəfdaşı-2019” mükafatı təqdim olunub.

Qeyd edək ki, ümumilikdə, 100 milyondan çox çap və onlayn abunəçisi olan “China Daily” təkcə Çində deyil, regionda, eləcə də dünyada ingilis dilində nəşr edilən ən nüfuzlu qəzetlərdən biridir. Ümumi tirajı bir milyon nüsxə olan qəzetin xarici ölkələrdəki oxucularının sayı yerli oxuculardan daha çoxdur. Bu da qəzetin qlobal səviyyəli nəşr olduğunun göstəricisidir.

AZƏRTAC ilə “China Daily” qəzeti arasında əməkdaşlığa dair anlaşma Agentliyin İdarə Heyətinin sədri Aslan Aslanovun Şanxay Əməkdaşlıq Təşkilatının birinci Media Sammitində iştirak etmək üçün ötən ilin iyununda Pekinə səfəri çərçivəsində “China Daily” qəzetinin rəhbərliyi ilə görüşündə əldə olunub.

# UNEC III Science Slam beynəlxalq elm müsabiqəsinin qalibi bəlli oldu

UNEC-də III Science Slam beynəlxalq elm müsabiqəsi keçirilib.

Müsabiqənin final mərhələsində universitetin rəhbərliyi, müəllim-professor heyəti və tələbələrlə yanaşı, UNEC İctimai Nəzarət Şurasının üzvləri, əməkdar elm xadimi, professor Şahlar Əsgərov, “XXI Əsr” Təhsil Mərkəzi İctimai Birliyinin rəhbəri, təhsil üzrə ekspert Etibar Əliyev, Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü də iştirak ediblər.




UNEC-də təşkil edilən beynəlxalq müsabiqənin əsas fəlsəfəsi elmin informasiyalarla dolu, anlaşılmayan termin və formullarla deyil, tam fərqli üslubda və prizmadan populyarlaşdırılmasıdır.

III Science Slam müsabiqəsinə UNEC-in bütün fakültələri ilə yanaşı, ilk dəfə olaraq Zaqatala filialının da tələbələri qatılıb. Müsabiqənin formatına uyğun olaraq, fakültə qalibləri 10 dəqiqə ərzində öz araşdırmalarını anlaşılan, kreativ və maraqlı şəkildə təqdim ediblər. Tələbələrin elektron xidmətlər, dənizin neftdən təmizlənməsinə ekoloji yanaşma, istehlakçı davranış modeli, dəniz iqtisadiyyatı, informasiya texnologiyaları və sosial şəbəkələr, video oyunların iqtisadiyyatda rolu, irqi ayrıseçlik mövzuları barədə araşdırmaları böyük maraqla dinlənilib.

Təqdimatlardan sonra, qaydalara uyğun olaraq, qaliblərin çıxışları alqış sədaları ilə qiymətləndirilib. Xüsusi cihaz vasitəsilə ölçülən alqışın səs diapazonu qalibi müəyyənləşdirib. 91.3 desibel (dB) səs tezliyində alqış qazanan İqtisadiyyat fakültəsinin tələbəsi Elşən Qurbanov “Video oyunların insan həyatına təsiri” mövzusunda təqdimatı ilə UNEC III Science Slam müsabiqəsinin qalibi olub. Biznes və menecment fakültəsinin tələbəsi Məryəm Bağırzadə 90.4 dB ilə ikinci, Maliyyə və mühasibat fakültəsinin tələbələri Ləman Nəcəfova və Əsmər Heydərli isə 90.1 dB ilə üçüncü yerə layiq görülüblər.

Qeyd edək ki, Science Slam beynəlxalq elm yarışması Azərbaycanda ilk dəfə olaraq UNEC-də keçirilib. Bu müsabiqə dünya üzrə Azərbaycanın adını 6-cı ölkə olaraq Science Slam tarixinə yazıb.

# I və IV ixtisas qrupları üzrə qəbul imtahanlarının nəticələri elan edilib

Dövlət İmtahan Mərkəzi (DİM) mayın 12-də I və IV ixtisas qruplarının abituriyentləri üçün keçirdiyi qəbul imtahanlarının nəticələrini elan edib. DİM-dən qəzetimizə verilən məlumata görə, imtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 32174 abituriyentdən 1771 nəfəri imtahanda iştirak etməyib. İmtahanda iştirak edən abituriyentlərdən 11 nəfəri imtahan qaydalarını pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib.

Məlumat üçün bildirək ki, imtahanda I ixtisas qrupu üzrə 1 abituriyent - Sumqayıt şəhəri, Texniki və təbiət elmləri liseyinin məzunu - ona təqdim olunmuş bütün test tapşırıqlarına düzgün cavab verib və maksimal nəticə - 400 bal toplayıb.

Qeyd edək ki, imtahanda abituriyentlərə I ixtisas qrupunda riyaziyyat, fizika və kimya fənləri üzrə, IV ixtisas qrupunda isə biologiya, kimya və fizika fənləri üzrə ümumilikdə 90 olmaqla, hər fənn üzrə 30 test tapşırığı təqdim olunur. Bu tapşırıqların 22-si qapalı, 8-i isə açıq tiplidir.

Xatırladaq ki, bu imtahanda (qəbul imtahanının ikinci mərhələsi) abituriyentlərin toplaya biləcəyi maksimal ümumi bal 400-dür. I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqə zamanı abituriyentlərin buraxılış imtahanından (qəbul imtahanının 1-ci mərhələsindən) əldə etdikləri nəticələri də nəzərə alınacaq və qəbul imtahanının ikinci mərhələsindən toplanılan balın üzərinə əlavə olunacaq. Yəni abituriyentlər buraxılış və qəbul imtahanlarında topladıqları balların cəminə (maksimal bal - 300+400=700 bal) əsasən ali təhsil müəssisələrinin müsabiqəsində iştirak edəcəklər.

İmtahanın nəticələri ilə bağlı müraciətlərə baxılması üçün Dövlət İmtahan Mərkəzində (Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında) 30-31 may və 3-5 iyun 2019-cu il tarixlərində saat 10:00-dan 17:00-dək Apelyasiya Komissiyası fəaliyyət göstərəcək.

Qeyd edək ki, II və III ixtisas qrupları üzrə 19 mayda keçirilən imtahanların nəticələri də 10 iş günü ərzində elan olunacaq.

**MÜŞFİQƏ**

# Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi artıq Lənkəranda!

*Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin yeni ofisi tələbələrin istifadəsinə verilib*

22 may tarixində Lənkəran Dövlət Universiteti nəzdində Azercell-in Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin yeni ofisinin açılış mərasimi keçirilib. “Akhundoff Group” şirkəti tərəfindən ən müasir avadanlıqla təchiz olunan ofisdə gənclər üçün sahibkarlıq və informasiya texnologiyaları mövzularını əhatə edən təlimlərin keçirilməsi, onlara müxtəlif layihələrin hazırlanmasında yardım edilməsi nəzərdə tutulub.




Tədbirdə çıxış edən Azercell-in Korporativ Ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskaya Lənkəran Dövlət Universitetinin rəsmilərinə və “Akhundoff Group” şirkətinin rəhbərliyinə bu təşəbbüsü dəstəklədiklərinə görə təşəkkür edib. Azercell tərəfindən ölkədə sahibkarlıq mühitinin inkişafına töhfə vermək məqsədilə 2009-cu ildə yaradılan Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin fəaliyyətindən bəhs edən Nigar Şıxlinskaya, yeni açılan ofisin gənclərə bu sahədə əvəzsiz təcrübə bəxş edəcəyini söyləyib. O, həmçinin regional Barama ofislərinin paytaxt və bölgə universitetlərində təhsil alan tələbələri startap sahəsində bərabər inkişaf imkanları ilə təmin edəcəyini vurğulayıb. Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin rəhbəri İmran Bağırov öz nitqində yeni istifadəyə verilən mərkəzin əsas məqsədinin kənd təsərrüfatı və texnologiyanı birləşdirmək, bu sahədə ixtisaslı kadrlar, proqramçılar yetişdirmək olduğunu bildirib.

Qeyd etmək istərdik ki, Azercell hər zaman gənclərin peşəkar inkişafına və onların mütərəqqi ideyalarının həyata keçirilməsinə xüsusi diqqət ayırıb. Bu istiqamətdə Azercell-in təşəbbüsü ilə yaradılan ölkənin ilk biznes inkubatoru - Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin müstəsna rolu olub. Azercell və Paşa Bankın dəstəyi ilə mərkəz fəaliyyəti boyunca bir çox layihələrin müstəqil şirkətə çevrilməsinə yardım edib, müxtəlif tədbirlər, seminarlar və təlimlər keçirib.

## İTMİŞDİR

Bakı Dövlət Universitetinin hüquq fakültəsinin I kurs tələbəsi Abdullayeva Aydan Paşa qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU